Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

10
OKTYABR
2019-cu il

№ 181 (4079)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# YENİ BAŞ NAZİRİN YENİ MİSSİYASI - ŞOSİAL-İQTİSADİ PROSESLƏRDƏ NAZİRLƏR KABİNETİNİ FORMAL QURUM ÇƏRÇİVƏSİNDƏN ÇIXARMAQ...

■ səh. 5 ■

Prezident Əliyevlə açıq dialoqlarda məcburi köçkünlərin dövlət başçısına münasibətlərinin əsas təzahür əlamətləri...

■ səh. 3 ■

Hər il 6 min məcburi köçkünə ev - azı 25-30 min insanın mənzil şəraitini yaxşılaşdırmaq bir vəd yox, real Azərbaycan möcüzəsi kimi...

■ səh. 3 ■

Paşinyan "Rusiya Dəmir Yolları"nın baş direktoru ilə də razılaşa bilmədi - Rusiya ilə pisləşən münasibətləri xilas etmək mümkün olmur...

■ səh. 7 ■

AXCP radikallarının paytaxtın mərkəzində öncədən hazırlanmış "piket taktikası" niyə baş tutmadı...

■ səh. 5 ■

İsa Qəmbərin Müsavat başqanlığına üç namizəddən birinə açıq dəstəyinə digər iki iddiaçının reaksiyası...

■ səh. 7 ■

Azərbaycan 141 ölkənin 58-cisi oldu - qlobal rəqabət indeksində sürətli irəliləyişin sosial-iqtisadi əsasları...

■ səh. 13 ■

"Tender" qanunvericiliyinin icrasında cinayət xarakterli pozuntu iddiaları - bir neçə aylıq şirkətlər qalib ola bilir...

■ səh. 14 ■



■ səh. 4 ■

## YAP-dan Azərbaycana möhtəşəm və Ermənistanı silkələyən çağırış - «Qarabağ Azərbaycandır» hərəkatı yaradaq...



Paşinyan «Qarabağ Ermənistandır»ın fiasko olduğunu anladı - Mnatsakanyan qurban verilir...

■ səh. 9 ■

Putin Paşinyanla görüşə Köçəryanın arvadından az vaxt ayırdı, paşinyançı media Putini 99-cu il siyasi qətllərində suçladı

■ səh. 6 ■



ABŞ-ın «dollar ekspansiyasına» qarşı yeni Türkiyə-Rusiya sazişi - Azərbaycanın da qoşulması üçün möhkəm əsaslar var...

■ səh. 11 ■

■ səh. 8 ■

"Xalq onlara hakimiyyət mandatı verməyi ağlına belə gətirmir"



■ səh. 4 ■

Radikal cəbhəçi piketçilərin "Əli Kərimli özü haradadır" ittihamları...



■ səh. 10 ■

"Parlamentdə bəzi deputatların əməllərinə baxanda adamın o mandata heyfi gəlir"



■ səh. 12 ■

Eçmiədzinin 2704 yaşı? - növbəti erməni saxtakarlığı tarixçiləri hiddətləndirdi...



■ səh. 15 ■

Təhsil Nazirliyi dərsliklərin elektronlaşdırılması yolunda yeni addımlar atır



## "Milli Şura" radikallarının Bakıda piket zamanı yol verdikləri hüquq pozuntularının və ziyanların məzmunu müəyyən edildi...

**Özlərini demokratik qüvvələrin "Milli Şura"sı adlandıran qurum və Azərbaycan Xalq Cəbhəsi Partiyasının razılaşdırılan piketi paytaxtın mərkəzində kütləvi hüquq pozuntuları ilə müşayiət olunub.**



Bakı Şəhər Baş Polis İdarəsindən verilən məlumata görə, piket ərəfəsində təşkilatçılara tədbirin qanunvericilik tələblərinə uyğun keçirilməsi ilə bağlı edilən rəsmi xəbərdarlıqlara baxmayaraq, piket iştirakçıları qanunun tələblərini pozmaqla yanaşı, razılaşdırılan xüsusatlardan kənar, "piketə dəstək" adı altında qanunsuz çağırışlar etməklə daha çox tərəfdarın cəlb olunmasına çalışıblar. Nəticədə sıxlığın, gediş-gəlişin, nəqliyyat axının intensiv olduğu mərkəzi küçələrdə qeydə alınan hüquqazidd əməllər hərəkətin iflic olmasına, piyadaların sərbəst gediş-gəlişinə maneçilik yaranmasına səbəb olub, ətrafdakı insanlara qarşı kobudluq və polisi qarşıdurmaya çəkmə cəhdləri baş verib.

Eyni zamanda, qeydə alınanlarla yanaşı, paytaxtın mərkəzi küçələrində şəhər təsərrüfatına ziyan vurulub, kommunal xidmətlərin tullantı qutuları dağıdılıb, antisanitariya normaları pozulub. Küçə yürüşünə cəhd zamanı müşahidə olunanlar onu deməyə əsas verir ki, təşkilatçılar "piketə dəstək" adı altında qanunsuz çağırışları ilə iştirakçıların hüquqazidd əməllərinə zəmin yaradıb. Bu əməllər onunla nəticələnib ki, iştirakçılar paytaxt küçələrində bir saat ərzində intizamsızlıq nümayiş etdirməklə acınacaqlı durum yaradıb.

Piket iştirakçılarının təhlükəsizliyini təmin etmək məqsədilə xidmətə cəlb olunan polis əməkdaşları ictimai asayişi qorumaq, ictimai qaydanı bərpa etmək, insanların hüquqlarını təmin etmək üçün üzərlərinə düşən vəzifələri qanunvericiliyə müvafiq olaraq peşəkarlıqla təmin edib.

## Türkiyə ordusu Suriyaya girdi... "Barış pınarı" (Sülh bulağı) əməliyyatı başladı

**Türkiyə Hərbi Qüvvələri Suriyanın şimalında yeni hərbi əməliyyatlara başlayıb. Baki-xeber.com xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Twitter" hesabından bəyan edib.**



O vurğulayıb ki, Türk ordusu "Sülh bulağı" adlı əməliyyat çərçivəsində Suriyanın şimalını YPG terrorçularından təmizləyəcək: "Məqsədimiz cənub sərhədlərimizdə formalaşdırılmağa çalışılan terror dəhlizini yox etməkdir. "Sülh bulağı" əməliyyatı ilə ölkəmizə yönəlik terror təhdidini aradan qaldıracağıq. Formalaşdıracağımız təhlükəsiz bölgə sayəsində suriyalı qaçqınların öz ölkələrinə dönməsini təmin edəcəyik. Suriyanın ərazi bütövlüyünü qoruyacaq, bütün bölgə xalqını terrorun pəncəsindən qurtaracağıq".

Ərdoğanın tvitindən bir neçə dəqiqə əvvəl Türkiyə döyüş təyyarələri Ceylanpınarın qarşısındakı Rasulayndakı terror hədəflərini vurmağa başlayıb. "Reuters", "Barış pınarı" (Sülh bulağı) adı verilən əməliyyat çərçivəsində YPG terrorçularına aid silah anbarları və mövqelərin bombalandığını xəbər verir. Əsasən kürdlərdən ibarət olan "Suriya Demokratik Qüvvələri" isə ABŞ və koalisiya qüvvələrindən Türkiyə qırıcılarının bombardmanını dayandırmaq üçün ölkənin şimalında uçuşa yasaq bölgə elan edilməsini istəyib.

"CNN Türk" isə ABŞ-ın Ankaradakı səfirinin Xarici İşlər Nazirliyinə çağırılaraq əməliyyat haqqında məlumatlandırıldığını bildirib.

Türkiyənin əməliyyata başlamasından dərhal sonra İraq da Suriya sərhədinə çox sayda hərbi qüvvə yeridib.

Hadisələrə münasibət bildirən NATO-nun Baş katibi Stoltenberq bildirib ki, Türkiyənin əsaslandırılmış təhlükəsizlik qayğıları var:

"Qorxunc terror hücumlarına məruz qaldı". Almaniya, Böyük Britaniya və Fransa isə Türkiyənin Suriyanın şimalında əməliyyat başlatmasının ardından BMT Təhlükəsizlik Şurasının təcili toplantısını çağırıb.

Bundan əvvəl ABŞ Müdafiə Nazirliyi Fəratın şərqinə gözlənilən hərbi əməliyyatın mümkün marşrutu üzərindəki qoşunların yerlərinin dəyişdirildiyini bildirib. "Reuters" və BBC-yə açıqlama verən rəsmilər isə ABŞ əsgərlərinin çəkilmə əməliyyatı başa çatdıqdan sonra Türkiyənin əməliyyata başlayacağını söyləmişdilər.

# Prezident İlham Əliyev Bakıda İsveçrənin Kantonlar Şurası sədrini, Gürcüstanın Baş nazirini və Rusiya nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev oktyabrın 9-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, son 10 il ərzində hər il İsveçrə və Azərbaycan prezidentləri görüşür və ikitərəfli əməkdaşlıq haqqında fikir mübadiləsi aparırlar. "Davos Dünya İqtisadi Forumunun burada, əlbəttə ki, xüsusi rolu var. Çünki Forum çərçivəsində bu görüşlər baş verir və bu il də istisna olmamışdır. Bu ilin yanvar ayında İsveçrə Prezidenti ilə görüşümü xatırlayıram.

Şadam ki, əlaqələrimiz təkcə siyasi dialoqla məhdudlaşmır, iqtisadi sahədə və sərmayə qoyuluşu sahəsində də yaxşı nəticələr var. İsveçrə şirkəti "Holcim" Azərbaycana yüz milyonlarla ölçülən sərmayə qoymuşdur. Həmçinin, Azərbaycan şirkətləri də ölkənizə sərmayə qoyurlar və bu proses qarşılıqlı xarakter daşıyır" - deyə Prezident bildirib.

Prezident İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş naziri Giorgi Qaxariyanı, habelə Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini də qəbul edib.

**Baki-xeber.com**

# Vilayət Eyvazov Gürcüstanın Daxili İşlər naziri Vaxtanq Qomelaurini qəbul edib

**Oktyabrın 9-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Daxili İşlər naziri, general-leytenant Vaxtanq Qomelaurinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, qonaqları salamlayan nazir V.Eyvazov gürcü həmkarını bu vəzifəyə təyinatı münasibətilə təbrik edib, xalqlarımız arasındakı dostluğun qədim tarixi köklərə malik olduğunu xatırladıb, hər iki ölkə rəhbərliyinin əlaqələrimizin daha da genişləndirilməsinə böyük önəm verdiklərini qeyd edib, bu münasibətlərin ölkə prezidentlərinin siyasi iradəsinə, müəyyənləşdirilmiş strategiyaya uyğun uğurla inkişaf etdiyini, Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə fəaliyyətin dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyini nəzərə çatdırıb.

Sonra mövcud kriminogen durum, cəmiyyətin bütün sahələrində, o cümlədən, daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunmasında əldə olunan nəticələr, xidmətin beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə qonaqlara məlumat verilib.

Qeyd olunub ki, ötən illər ərzində nazirliklərin rəhbər vəzifəli şəxsləri, sərhədyanı bölgələrin polis orqanlarının rəisləri səviyyəsində qarşılıqlı səfərlər, cinayətkarlıqla mübarizədə birgə səylərin əlaqələndirilməsinin daha da yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsinin prioritet istiqamətlərinin müzakirəsi praktikası yaranıb. DİN-lər arasında əməkdaşlığın hüquqi bazasının məqsədyönlü və ardıcıllıqla möhkəmləndirildiyini qeyd edən nazir, imzalanmış sənədlərin, xüsusilə 2002-ci ilin aprelində Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərin digər növlərinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair imzalanmış müqavilənin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində əlaqələrin inkişafına təkan verdiyini bildirib.

Nazir V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Gürcüstanın Daxili İşlər naziri Vaxtanq Qomelauri səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, mehriban qonşu və yaxın dost olan Azərbaycanla bütün sahələrdə, o cümlədən, daxili işlər orqanları arasında əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

**Qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Son illər aradıcıl olaraq ölkəmizin müxtəlif yerlərində qaçqın və məcburi köçkünlər üçün yaşayış massivləri inşa edilir, qəsəbələr salınır.**

# Prezident Əliyevlə açıq dialoqlarda məcburi köçkünlərin dövlət başçısına münasibətlərinin əsas təzahür əlamətləri...

***Bəhruz Quliyev:** "Qaçqın və məcburi köçkünlər Prezidentlə bütün söhbətlərdə, qurduqları dialoqlarda tam səmimidirlər, buna heç bir şübhə ola bilməz"*



Bu yaşayış massivlərinin açılış mərasimlərində ölkə başçısı şəxsən iştirak edir, qaçqın və məcburi köçkünlərlə söhbətlər edir, onların arzularını, istəklərini dinləyir. Hətta Prezident qaçqın və məcburi köçkünləri fərdi olaraq da qəbul edir, onlarla maraqlı dialoq qurur. Deyərdik ki, bu, artıq xoş ənənə halını alıb.

Məcburi köçkünlərin çıxış və söhbətlərində Prezidentə münasibətin əsas hansı elementləri özünü göstərir?

"Səs" İnformasiya Agentliyinin və eyniadlı qəzetin baş redaktoru Bəhruz Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, yalnız qaçqın və məcburi köçkünlər deyil, eləcə də digər vətəndaşlar ölkə başçısı ilə görüşlərdə ona səmimi münasibət bəslədiklərini açıq şəkildə göstərirlər. B.Quliyev hesab edir ki, Prezident İlham Əliyev bir dövlət başçısı kimi özü ilə vətəndaşlar arasında səmimi dialoq üçün şərait yaradır. Onun sözlərinə görə, bu baxımdan qaçqın və məcburi köçkünlərin çıxışlarında, Prezidentlə dialoqlarda səsləndirdiyi fikirlərin mayasını yalnız səmimiyyət təşkil edir. Prezidentlə onlar arasında qarşılıqlı səmimi dialoqların yarandığını deyən B.Quliyevin qeyd etdiyinə görə, qaçqın və məcburi köçkünlər Prezidentin onlar üçün həyata keçirdiyi işlərə görə ona qəlbən minnətdar olur və bunu da dilə gətirməkdən çəkinmirlər: "Hər bir vətəndaş Prezidentlə xəyali söhbət edir. Çox sevindirici haldır ki, Prezident bu xəyalı gerçəkləşdirir, arzuları çin edir. Biz görmüşük ki, dəfələrlə Prezident müxtəlif parkların, yaşayış massivlərinin, eləcə də digər mərkəzlərin açılış mərasimlərində, şəhər gəzintilərində, eləcə də təbii fəlakətlər zamanı insanların içində olur və onlarla canlı dialoqlar qurur. O, xalqın istək və arzularını birbaşa onun öz dilindən eşitməyi sevir. Hətta zəlzələ dövründə hadisə baş verən rayonlara gedərək şəxsən mənzillərə baş çəkdi və insanlarla söhbətlər etdi, onları dinlədi. Bu da Prezident və vətəndaş arasında səmimi ünsiyyətin təzahürüdür. Bu həm də məmurlara bir mesajdır ki, onlar özlərini yığışdırsınlar. Ona görə ki, sadə vətəndaş birbaşa Prezidentlə asan təmas qura bilir, ona fikirlərini çatdırmaq imkanı əldə edir. Ona görə də Prezidentə ictimaiyyət tərəfindən göstərilən bu münasibət səmimiyyətin təzahürüdür. Hesab edirəm ki, qarşılıqlı münasibət, ünsiyyət bütün dövrlərdə özünü yaxşı mənada göstərib. Keçən əsrin 90-cı illərində də xalq öz liderini arzuladı, çağırdı, xilas üçün ulu öndərə üz tutdu. Bu gün də həmin münasibət, qarşılıqlı təmas davam etməkdədir. Modern dünyanın qanunlarına uyğun olaraq ölkə başçısı elektron vasitələrlə, sosial şəbəkələr vasitəsilə də üz tuta bilirlər. Cənab Prezident özü də dəfələrlə deyib ki, mən yazılanları da görürəm, müraciətlərə də baxıram.

*"Onlar ölkə başçısının göstərdiyi sonsuz qayğıya öz səmimi arzu və fikirləri ilə qarşılıq verirlər"*

Qaçqın və məcburi köçkünlərə gəlincə isə, ümumiyyətlə, onlar cənab Prezidentin daim diqqət mərkəzindədir. Onların sosial problemlərinin həlli, yaşam tərzi, mənzil şəraiti, gündəlik tələbatı cənab Prezidentin ən həssaslıqla, diqqətlə izlədiyi məsələdir. Onlara dövlət tərəfindən evlər tikilir, imtiyazlar verilib. Məcburi köçkünlərin Prezidentlə söhbətləri zamanı səsləndirdikləri fikirlər, göstərdikləri münasibət yalnız səmimiyyətin təzahürüdür. Onlar ölkə başçısının göstərdiyi sonsuz qayğıya öz səmimi arzu və fikirləri ilə qarşılıq verirlər. Qaçqın və məcburi köçkünlər Prezidentlə bütün söhbətlərdə, qurduqları dialoqlarda tam səmimidirlər, buna heç bir şübhə ola bilməz. Bu söhbətlərdə qeyri-səmimilik axtarmaq düzgün deyil. Çünki onlar ölkə başçısına daxildən gələn sevgi və səmimiyyəti, hissləri Prezidentə çatdırırlar".

B.Quliyev hesab edir ki, ümumiyyətlə, qaçqın və məcburi köçkünlər ölkə başçısına böyük ehtiram, səmimi hisslər bəsləyirlər. Onun fikrincə, qaçqın və məcburi köçkünlər ölkə başçısının onların rifahı üçün həyata keçirdiyi bütün işləri minnətdarlıqla qeyd edirlər.

***İradə SARIYEVA***

**Azərbaycanda prioritet istiqamət kimi müəyyənləşdirilən sosial siyasət bu gün cəmiyyətdə maddi rifah halının davamlı şəkildə yüksəlməsi ilə müşayiət edilməkdədir. Əməkhaqlarının və sosial müavinətlərin, insanların gəlirlərinin artması Azərbaycanın sosial siyasətinin də dünyaya nümunə ola biləcək səviyyədə yüksəlməsinə gətirib çıxarıb.**

# Hər il 6 min məcburi köçkünə ev - azı 25-30 min insanın mənzil şəraitini yaxşılaşdırmaq bir vəd yox, real Azərbaycan möcüzəsi kimi...

***Flora Qasımova:** "Qaçqın və məcburi köçkünlərə dövlət qayğısı həmişə ön planda olub"*



Bütün bunları ölkənin bütün vətəndaşları kimi məcburi köçkünlər də gündəlik həyatlarında hiss edirlər.

Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin əsası mərhum prezident Heydər Əliyev tərəfindən qoyulub və xalqımızın bu ağrılı probleminin həlli üçün zəruri strategiya müəyyənləşdirilib. Sonrakı dövrdə Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması və digər problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib. Məhz bunun nəticəsidir ki, qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində lazımi addımlar atılmaqda davam edir.

Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün bu il bir neçə yaşayış kompleksinin inşasına başlanıb, bir neçəsi artıq istifadəyə verilib və veriləcək.

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub. Açılışda iştirak edən Prezident İlham Əliyev çıxışında bildirib ki, qaçqın və məcburi kömkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün hər il Azərbaycanda minimum 6 min köçkün ailəsi evlərlə təmin olunacaq: "Orta hesabla hər bir ailədə 5 nəfər vardır, beləliklə, hər il 30 min insan üçün biz yeni evlər, mənzillər tikib təhvil veririk. Yəni bu, əslində, bir şəhərdir. İndi Qobu qəsəbəsində yeni bir şəhər yaradılıb. Bütün infrastruktur var. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlar, o cümlədən, BMT Azərbaycanda məcburi köçkünlərə göstərilən qayğı və diqqətin səviyyəsini çox yüksək qiymətləndirir, bir çox ölkələr üçün Azərbaycanda bu sahədə aparılan siyasət bir nümunə kimi göstərilir. Eyni zamanda, bildiyiniz kimi, bu il məcburi köçkünlərə dövlət tərəfindən ayrılan müavinətin həcmi də 50 faiz artıb. Hər bir köçkünə bu məbləğ verilir, baxmayaraq ki, o, işlə təmin olunub, təmin olunmayıb. Bu da bizim sosial siyasətimizin nəticəsidir. Biz bundan sonra da ardıcıl olaraq bu siyasəti aparacağıq, hələ də ağır vəziyyətdə yaşayan soydaşlarımızın yaşayış problemlərini həll edəcəyik".

İl ərzində 6 min köçkünün mənzillə təmin olunmasının əhəmiyyəti barəsində danışan millət vəkili Flora Qasımova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda məcburi köçkünlərə göstərilən diqqət dünyanın heç bir ölkəsində yoxdur: "Qaçqın və məcburi köçkünlərə dövlət qayğısı həmişə ön planda olub. Onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan dövləti çox ciddi tədbirlər həyata keçirir. Məcburi köçkünlərin mənzillə təmin olunması, sosial vəziyyətinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün xüsusi dövlət proqramları qəbul olunaraq uğurla həyata keçirilir".

Xanım millət vəkili bildirdi ki, doğma torpaqlarından didərgin düşən məcburi köçkün ailələri bir müddət çətin vəziyyətdə yaşadılar: "Məcburi köçkün ailələri neçə il çadır şəhərciyində yaşadılar. Aparılan uğurlu sosial siyasət nəticəsində bütün çadır şəhərcikləri ləğv olunaraq, Bakıda və rayon mərkəzlərində məcburi köçkünlər üçün çoxmərtəbəli evlər tikilib, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan genişmiqyaslı işləri davam etdirilir".

F.Qasımova onu da əlavə etdi ki, Birinci vitse-prezident işə başladığı ilk gündən bəri qəzalı vəziyyətdə olan evlərdə yaşayan köçkünlərin mənzillə təmin olunmasına xüsusi diqqət ayırdı. O vaxtdan bəri hissə-hissə qəzalı vəziyyətdə olan yerlərdə yaşayan köçkünlərimiz mənzillə təmin olundu: "Biz inanırıq ki, yaxın zamanlarda məcburi köçkünlərimiz tamamilə yeni mənzillərlə təmin olunacaqlar. Görülən işlər davam etdirilir. Mən şəxsən özüm də məcburi köçkünlərlə görüşərkən onların yaşayışı ilə tanış olub, mövcud problemləri Milli Məclisdə səsləndirmişəm".

***Günel CƏLİLOVA***

# YAP-dan Azərbaycana möhtəşəm və Ermənistanı silkələyən çağırış - "Qarabağ Azərbaycandır" hərəkatı yaradaq...

*Bütün Azərbaycanı toparlayacaq pasionar enerjili yeni milli ideya...*

**Baş nazirin müavini, hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov "Qarabağ Azərbaycandır!" Hərəkatının yaradılmasını təklif edib. "Trend"-in məlumatına görə, Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin Soçi şəhərində "Valday" beynəlxalq diskussiya klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır!" mesajı gündəmin əsaslı surətdə dəyişdirilməsinə gətirib çıxarıb.**



Ə.Əhmədovun sözlərinə görə, Qarabağ münaqişəsi başlayandan bu günə qədər heç zaman səngiməyən vətənpərvərlik əhval-ruhiyyəsi son illərin ən yüksək pilləsinə yüksəlib: "Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın münaqişəni ədalətli şəkildə nizamlamaq, torpaqlarımızı qeyd-şərtsiz geri qaytarmaq əzminə və qabiliyyətinə inam qat-qat artıb. Əslində Prezidentin "Qarabağ Azərbaycandır!" çağırışı indiki dövrün milli ideyası statusunu qazanmaqdadır. Yüz minlərlə vətəndaşın bu çağırışa səs verərək onun ətrafında toplanması aydın şəkildə müşahidə olunur. Çox keçmədən bu sırada olanların sayının milyonlara çatacağına şübhə etmirəm. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, topraqlarımızın işğaldan azad edilməsi ölkənin vətəndaşlarını birləşdirən başlıca dəyərlərdən biridir. Milli birlik və vətəndaş həmrəyliyi əhəmiyyətli dərəcədə onun əsasında formalaşıb. Prezident İlham Əliyev Valday beynəlxalq toplantısında "Qarabağ Azərbaycandır!" çağırışını səsləndirməklə qeyd olunan dəyərin milli statusunu daha da yüksəltmiş oldu. İndi biz onu tam qətiyyətlə milli ideya kimi səciyyələndirə bilərik. Yəqin ki bu ən doğru addım və dəyərləndirmə olar. Xüsusi vurğulanmağa ehtiyacı olan məqam "Qarabağ Azərbaycandır!" mesajı, əgər belə demək mümkündürsə, beynəlxalq auditoriyaya, dünya ictimaiyyətinə və təşkilatlarına ünvanlanmışdır. Nə məlum münaqişə, nə onun hələlik aradan qaldırılmamış nəticələri, nə də nizamasalma prosesi Qarabağın mənsubiyyətini dəyişdirmir, dəyişdirə bilməz və dəyişdirməyəcək - Prezidentin bütün dünyaya çatdırdığı mesajın mahiyyəti məhz bundan ibarətdir. İlham Əliyevin bir çox dövlət başçılarının, çoxsaylı beynəlxalq siyasi ekspertlərinin və mətbuat nümayəndələrinin qarşısında cəsarət və qətiyyət nümunəsi sayıla biləcək çıxışının arxasında möhtəşəm gücün dayandığı heç kimdə şübhə yaratmır. Bu güc hər şeydən əvvəl xalqın iradəsi, Azərbaycanın silahlı qüvvələrinin döyüş qabiliyyəti, nəyin bahasına olursa olsun torpaqlarımızı işğaldan azad etmək əzmidir. Bu güc eyni zamanda beynəlxalq hüququ, onun ədalətli mahiyyətinə inamdan irəli gəlir. Mətbuatdan göründüyü kimi, Prezident İlham Əliyevin mesajı bütün lazımi ünvanlara lazımi səviyyədə çatıb. Onu ilk növbədə və əsas etibarilə Ermənistanda eşidiblər və yəqin ki, gərəkli nəticə çıxarıblar".

Ə.Əhmədov qeyd edib ki, "Qarabağ Azərbaycandır!" çağırışı milli ruhu və iradəni inanılmaz dərəcədə yüksəldə bilib: "Onun birləşdirici xarakterinin və gücünün davamlı olacağı, ümummilli mahiyyət kəsb edəcəyi şəksizdir. Gözlərimizin önündə yeni bir hərəkat yaranır, "Qarabağ Azərbaycandır!" hərəkatı. Hər bir azərbaycanlının, hər bir vətənpərvərin yeri bu hərəkatdadır. İnanıram ki, bu hərəkat əzəmətli birselə bənzəyəcək, bütün Azərbaycan xalqını əhatə edəcək. Hər yerdə, kəndlərdə, şəhərlərdə, təşkilatlarda böyüklü-kiçikli hamı "Qarabağ Azərbaycandır!" deyəcək. Xalq öz birliyini, həmrəyliyini yenə də daha əzmlə, daha qətiyyətlə göstərəcək, daha uca səslə bəyan edəcək. Və bu birliyi pozmağa çalışanlara layiqli cavab verəcək. Təxribat törətmək, sabitliyi pozmaq, ara qarışdırmaq niyyəti ilə küçələrə çıxıb yersiz çağırışlar edənlərin xalqdan və onun ideyalarından nə qədər uzaq düşdüyü bu günlərdə daha qabarıq görünür. Sanki onlar bu ölkənin vətəndaşı, bu millətin övladları deyil. Açığı belə bir mənzərəni görmək və duymaq həm təəssüfləndirici, həm də utandırıcıdır.

Təsəlli verən odur ki, xalqdan ayrı düşüb fərqli, eyni zamanda zərərli maraqların daşıyıcısı olanların sayı çox deyil. Mən hər bir azərbaycanlını "Qarabağ Azərbaycandır!" hərəkatının fəal iştirakçısı olmağa səsləyirəm. Gəlin bir cəsarətli çağırışı ilə dünyaya səs salan, milli ruhu yüksəldən, milli birliyimizi və vətəndaş həmrəyliyini daha da gücləndirən Prezident İlham Əliyevin ətrafında sıx birləşək. Qüdrətli, möhtəşəm "Qarabağ Azərbaycandır!" hərəkatı yaradaq, xalqımızın iradəsini, əzmini və qətiyyətini düşmənə nümayiş etdirək. Beynəlxalq birlik, ilk növbədə BMT, ATƏT-in Minsk qrupu, onun həmsədri olan vasitəçilər danışıqlar prosesində böyük müdriklik, təmkin, eyni zamanda qəti və sarsılmaz mövqe nümayiş etdirən Prezident İlham Əliyevin arxasında möhtəşəm xalq iradəsinin və hərəkatının dayandığına əmin olsun. Dövlətə, millətə sədaqətin, Qarabağ münaqişəsinin ədalətli həllinə dəstəyin ən mühüm ifadəsini mən bunda görürəm".

# Radikal cəbhəçi piketçilərin "Əli Kərimli özü haradadır" ittihamları...

**Məlum olduğu kimi, oktyabrın 8-də son günlər üzvlərinin müxtəlif vəhşiliyi, səsyazıları və digər biabırçılıqları ilə məşhurlaşan "Milli Şura" və AXCP-nin Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında 50 nəfərlik piketi keçirilib. Lakin keçən müddətdə piketlə mitinqin fərqini belə bilməyən, başda Əli Kərimli olmaqla, AXCP üzvləri sosial şəbəkələrdə vətəndaşlara, aksiya keçirirmiş kimi, piketə dəstək verməyə dair çoxsaylı çağırış etdilər.**



## ***Məhərrəm Zülfüqarlı:*** *"Görünən odur ki, sıravi cəbhəçilər get-gedə Əli Kərimlinin yalanlarına alət olmaq istəmirlər"*

Cəbhəçilər yenə də həmişəki ənənələrinə, çirkin niyyətlərinə sadiq qaldılar. Ərazidə təxribatçı hərəkətlərini davam etdirdilər, piketin qaydasında, tam dinc şəraitdə keçməsinə baxmayaraq, şəhərin mərkəzində, xüsusilə də sıravi vətəndaşların gəzərək istirahət etdiyi yerlərdə çoxluq görüntüsü yaratmaq məqsədilə icazəsiz yürüş keçirməyə, polis əməkdaşlarını provokasiyaya çəkməyə çalışdılar. Nəticədə onların təxribatına aldanan bəzi şəxslər arasında xəbərdarlıq edilib ərazidən uzaqlaşdırılan da oldu, saxlanan da.

Ən maraqlı məqamlardan biri də o oldu ki, piketçilərdən biri Ə.Kərimlinin piketə gəlməməsinə etiraz etdi. Belə ki, sözügedən piketçi qışqıraraq "Ə.Kərimli özü haradadır" deyə aksiya iştirakçılarından soruşub. Bu artıq onu göstərir ki, sıravi cəbhəçilər arasında Ə.Kərimliyə yönəlik narazılıqlar artır. İnsanları qanunsuz aksiyalara təhrik edən Ə.Kərimli özü piketə gəlmir. Bu da, öz növbəsində, tərəfdarları arasında ona qarşı narazılıqların daha da artmasına təkan verir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu onu göstərir ki, artıq sıravi cəbhəçilər Ə.Kərimlinin əsl mahiyyətini dərindən dərk etməyə başlayıblar: "Görürlər ki, Ə.Kərimli riyakarlıqla, saxtakarlıqla məşğuldur. İnsanları piketə çağırır, özü isə kənarda gizlənir. Eyni zamanda, düşünülmüş şəkildə piket iştirakçılarını qanundankənar hərəkətlərin edilməsinə təhrik edir. Bu, açıq-aşkar, sözügedən aksiyada özünü büruza verirdi. Görünən odur ki, sıravi cəbhəçilər get-gedə Ə.Kərimlinin yalanlarına alət olmaq istəmirlər. Bu səbəbdən ona açıq şəkildə etiraz etməkdən çəkinmirlər. Başqa bir tərəfdən, adətən, piketə az sayda adam gəlir, hansısa tələblər irəli sürüb gedirlər. Ancaq bunlar isə, qanunsuz olaraq, piketi mitinqə çevirmək, güc nümayiş etdirmək istədilər. Buna da imkan verilmədi və qanun çərçivəsində bunun qarşısı alındı. Bununla belə, sözügedən aksiyalar həm də o məqsəd daşıyır ki, bunu təşkil edənlər kimlərəsə hesabat verirlər. Onların məqsədi çəkilişlər aparıb hesabat vermək idi. Buna da müəyyən mənada nail oldular. Burada xalqın istəyindən yox, bir qrup adamın istəyindən söhbət gedir. Ona görə də bilərəkdən aksiyada təxribat törətdilər".

*"Bu səbəbdən ona açıq şəkildə etiraz etməkdən çəkinmirlər"*

***Vidadi ORDAHALLI***

# Yeni Baş nazirin yeni missiyası - sosial-iqtisadi proseslərdə Nazirlər Kabinetini formal qurum çərçivəsindən çıxarmaq...

**Azərbaycanda mühüm bir hadisə baş verdi. Parlament ölkənin yeni Baş nazirini təsdiqlədi. İlyarım əvvəl bu posta təyin edilən Novruz Məmmədovun verdiyi könüllü istefadan sonra həmin yüksək posta Əli Əsədovun seçilməsi reallaşdı. Bu dəyişikliyi müxtəlif aspektlərdən qiymətləndirənlər var.**

Ancaq soyuq başla yanaşdıqda ortaya maraqlı detallar çıxır. Novruz Məmmədov ixtisasca iqtisadçı deyildi. Görünür, onun sırf iqtisadi sektora aid olan, bu sahədə böyük təcrübəsi olan bir kadrla əvəzlənməsi zərurətdən irəli gəlib. Bu zərurət nə ola bilər? Hələ bir neçə il əvvəl Azərbaycan Respublikasının Prezidenti 2017-ci il 23 avqust tarixli Fərmanı ilə Nazirlər Kabineti Aparatının yeni strukturunu təsdiq etdi. Ölkə başçısı dəfələrlə Nazirlər Kabinetinin, mərkəzi icra orqanlarının təkmilləşdirilməsinin zəruriliyi haqda danışıb.

Bu islahatlar zamanın çağırışı idi. Sonuncu referendumdan sonra vitse-prezidentlik strukturları yaradıldı. Bununla bağlı mütləq Nazirlər Kabinetində ciddi struktur dəyişiklikləri olmalı idi. Eyni fəaliyyətin həm vitse-prezidentlik strukturu, həm Nazirlər Kabineti tərəfindən aparılması düzgün deyildi. Ona görə də cənab Prezident Nazirlər Kabinetinin yeni strukturunu təşkil etdi. Dəyişikliklərdən sonra müəyyən qədər paralellik aradan qalxdı. Eyni funksiyanı daşıyan 11 şöbə birləşdirilərək 5 yeni şöbə yaradıldı. Nazirlər Kabinetinin sədrinin, onun müavinlərinin, strukturlarının hər birinin görəcəyi işlər müəyyənləşdrilidi. Məlumdur ki, prezidentli respublikaların bir çoxunda Nazirlər Kabineti yoxdur. İcra orqanlarına birbaşa olaraq Prezident Administrasiyası rəhbərlik edir. Bizdə Nazirlər Kabinetinin olmağı ənənələrdən irəli gəlir və bu cür məqbul sayılır. Referendumla da Azərbaycan xalqı bunu dəstəkləyib. Nazirlər Kabinetinin Prezident Administrasiyası ilə yanaşı saxlanmasına səs verib. Ona görə də bu xidmət sahələrindəki oxşarlıqlar da gələcəkdə mütləq təkmilləşməlidir. Ölkənin sosial-iqtisadi sahəsini əhatə edən böyük islahatlar həyata keçirilir. Təbii ki, bütün bunların təşəbbüskarı cənab Prezidentdir. Ancaq biz son illər ərzində müşahidə



edirik ki, həmin islahatların həyata keçirilməsində Nazirlər Kabineti təşəbbüsü ələ ala bilmirdi və daha çox formal olan qurum təsirini bağışlayırdı. Yeni Baş nazirdən iki gözləntinin daha çox olduğunu izləyirik. Birincisi, Nazirlər Kabinetinin yeniləşməsi, ikincisi isə sosial-iqtisadi islahatların həyata keçirilməsində lokomativ rolunu oynamaq. Azərbaycanda son illərdə çox ciddi kadr, iqtisadi və siyasi islahatlar həyata keçirilir. Təbii ki, yeni Baş nazirin müəyyən təklifləri olacaq.

**Ondan ciddi kadr islahatı gözləmək olmaz, çünki bu, Prezidentin səlahiyyətinə aid olan məsələdir. Ancaq biz Prezidentin başlatdığı sosial-iqtisadi islahatları daha məntiqi sonluqla, gözəl nəticələrlə bitməsini istəyiriksə, onda Nazirlər Kabineti daha funksional quruma çevrilməlidir. Ümid edirik ki, yeni Baş nazir bunun fərqindədir və biz bu irəliləyişin şahidi olacağıq.**

*Məhəmmədəli* **QƏRİBLİ**

# AXCP radikallarının paytaxtın mərkəzində öncədən hazırlanmış "piket taktikası" niyə baş tutmadı...

**Son günlər üzvlərinin müxtəlif səsyazıları və digər biabırçılıqları ilə məşhurlaşan "Milli Şura" və AXCP şəhərin mərkəzində icazəli piket keçirdi. Lakin keçən müddətdə piketlə mitinqin fərqini belə bilməyən, başda Əli Kərimli olmaqla, AXCP üzvləri sosial şəbəkələrdə çağırış edərək vətəndaşları piketə dəstək verməyə səslədilər.**



Cəbhəçilər piket keçirilən vaxt ərazidə təxribatçı hərəkətlər etdilər, piketin qaydasında, tam dinc şəraitdə keçməsinə baxmayaraq, şəhərin mərkəzində, xüsusilə də sıravi vətəndaşların gəzərək istirahət etdiyi yerlərdə çoxluq görüntüsü yaratmaq məqsədilə icazəsiz yürüş keçirməyə, polis əməkdaşlarını provokasiyaya çəkməyə çalışdılar. Ancaq onların bütün təxribatlarının qarşısı alındı.

İşin ən maraqlı tərəfi isə bu idi ki, həmin aksiyada nə Əli Kərimli, nə də "Milli Şura" sədri Cəmil Həsənli gözə dəydi. Səbəb bəllidir, onların planlaşdırdığı ssenari tam başqa idi və orada iştirak risq tələb edirdi. Radikal liderlər istəyirdilər ki, icazəli aksiyanı bir

***Rəfail Becanov:** "Əli Kərimli guya hökumətə güc göstərmək istəyirdi, ancaq müxalifətə yeni bir torba tikmiş oldu"*

xaosa çevirsinlər. Şəhərin mərkəzində bir ajiotaj yaratmaqla prosesə sadə vətəndaşları da cəlb etsinlər. Ancaq onların istəyi alınmadı. Radikalların niyyəti niyə alınmadı?

AXCP adına iddia edən digər qanadın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla Ə.Kərimli və tərəfdarları həm də müxalifətin imicinə böyük zərbə vurdular: "Birincisi, bu ölkədə yalnız onlar piket keçirmək istəmir. Başqa müxalifət partiyaları da var ki, onların da piket keçirmək hüququ var. İndi sual oluna bilər: əgər piketə icazə verilmişdisə, niyə qaydalara əməl olunmadı? Təşkilatçılar bunu etməyə borclu idi. Piketin tələblərinə uyğun şəkildə olan sayda adam çıxmalıydı. Bununla Ə.Kərimli bir neçə məqsəd güdürdü. Birincisi, göstərmək istəyirdi ki, guya arxasında güc var. Əslində, bu bir şou idi. Ona aksiya demək olmaz. İkinci məqsədi isə müxalifətin adına zərər vurmaq idi. Bunu da etdi. Artıq onlar hökumətin əlinə kifayət qədər əsas verdilər ki, gələcəkdə şəhərin mərkəzində aksiyalara icazə verməsin. Ə.Kərimli guya hökumətə güc göstərmək istəyirdi, ancaq müxalifətə yeni bir torba tikmiş oldu. Ə.Kərimli bununla istəyinə tam nail oldu. Ancaq aksiyası alınmamaqla nə müxalifətə, nə də iqtidara əzələ nümayiş etdirə bilmədi. Göründü ki, heç böyük izdiham da yarada bilmədilər. Bir neçə radikalı xahiş və minnətlə ora çıxarmışdılar. Həmin aksiyanı sivil formada da keçirmək olardı. Tam aydın oldu ki, bunlara normal tədbir yox, qarşıdurma yaratmaq maraqlı olub.

Buna da nail olmadılar. Çünki asayiş keşikçiləri də çox normal davranış nümayiş etdirdilər, onların provokasiyasına uymadılar. Əslində, təşkilatçılar hakimiyyətin verdiyi bu imkandan daha yaxşı yararlana bilərdilər. Sonra əllərində əsas olardı deməyə ki, biz nümunəvi davranış ortaya qoyuruqsa, niyə aksiyaya icazə vermirsiniz? Bundan sonra həmin sözü heç bir müxalifət partiyası deyə bilməyəcək. Bu da Ə.Kərimlinin növbəti "xidməti" oldu".

*Məhəmmədəli* **QƏRİBLİ**

**İrəvanda keçirilən Avrasiya İqtisadi Birliyinin sammitindən artıq xeyli vaxt keçsə də, onun əks-sədası hələ də Ermənistanda səngimir. Erməni cəmiyyətini, xüsusən də baş nazir Nikol Paşinyan hakimiyyətini narahat edən başlıca məqam budur ki, proseslərin gedişindən çox narazı qalan Rusiya prezidenti Vladimir Putin İrəvanı daha sərt formada cəzalandıracaq.**

# Putin Paşinyanla görüşə Köçəryanın arvadından az vaxt ayırdı, paşinyançı media Putini 99-cu il siyasi qətllərində suçladı

*Paşinyanın növbəti sərsəm gedişi Moskvanı daha çox qəzəbləndirməyə başlayır*



Rusiyanın "Kommersant" qəzetinin yazdıqlarından da belə bəlli olur ki, Moskvanın erməni iqtidarından narazılığı getdikcə artır.

Qəzet Avrasiya İqtisadi Birliyinin sammiti çərçivəsində baş verənlərin bunu təsdiklədiyini də xüsusi vurğulayır. İlk növbədə diqqət ona yönəlir ki, hələ sammitdən əvvəl qeyri-standart, sağlam olmayan bir atmosfer yaranıb. Bundan sonra isə Rusiya və Ermənistan rəhbərlərinin ikitərəfli görüş imkanı sual altına düşüb. "Kommersant" politoloq Beniamin Matevosyandan sitat gətirərək bildirib ki, "Dvin" otelində və "Zvartnots" hava limanında Paşinyanla Vladimir Putinin görüşləri cəmi 10 dəqiqə davam edib. Halbuki, Rusiya prezidenti Ermənistanın ikinci prezidenti Robert Köçəryanın həyat yoldaşı Bella Köçəryanla görüşə daha çox vaxt ayırıb. "Kommersant" bunu Putinin Paşinyana hansı münasibət bəslədiyinin real göstəricisi olaraq təqdim edir. Bütün bunlardan sonra Ermənistanda Paşinyanın nəzarətində olan media orqanlarının Putinə qarşı total hücumu isə Paşinyanın növbəti səriştəsiz gedişi sayılır. Yeri gəlmişkən qeyd edək ki, Putin indi Ermənistanda Köçəryanla birlikdə siyasi qətldə ittiham olunur. Bu xüsusda Ermənistanın "1in.am" portalının yazdıqları xüsusi diqqət cəlb edir. Portal qeyd edir: "21 il bundan öncə, 10 oktyabr 1998-ci ildə deputat Vano Siradegyan bəyan etdi ki, Robert Köçəryan sakitcə parlamenti buraxa bilər, çünki orada siyasi dayağı yoxdur. Yeri gəlmişkən, 1998-ci ilin saray çevrilişindən sonra Robert Köçəryanın hədəfi ilk növbədə parlament olmuşdu. Onu cinayətkarların hamisi kimi təqdim etdiyi Erməni Ümummilli Hərəkatının təsir aləti kimi görürdü. Reallıq ondan ibarətdir ki, Köçəryan öz mahiyyəti etibarilə prinsipial olaraq siyasi debatları, parlament diskurslarını qəbul etməyən avtoritar düşüncəli insandır.

Digər tərəfdən, Köçəryan parlamenti yalnız Levon Ter-Petrosyan komandasının orada iştirak etməsinə görə hədəf seçməmişdi. Erməni Ümummilli Hərəkatı və ya "Respublika" fraksiyası parlamentdə də çoxluğu itirmişdi və hakimiyyətə qarşı real çağırış təşkil edə bilməzdi. Köçəryanı narahat edən o idi ki, parlament çoxluğuna həmin günlərdə prezidentin "gözündə ağ ləkə" olan Vazgen Sarkisyan nəzarət edirdi. İş ondadır ki, Köçəryan şərq tipli diktaturaya can atırdı, lakin onun təsisi Vazgen Sarkisyanın iştirakı ilə və ya o həyatda olarkən realllaşa bilməzdi. Təsadüfi deyil ki, Köçəryanın komandası mümkün olan bütün təbliğat vasitələrindən istifadə edərək, Vazgen Sarkisyanı nüfuzdan salmağa cəhd edirdi. O da təsadüfi deyil ki, Vano Siradegyan özünün məşhur məktubunda hay salırdı: "…Supernazir Vazgen Sarkisyandan yalnız kamuflyaj qalacaq. Mən bu məsələdə həddindən çox əminəm". Əlbəttə, Köçəryanın mövqeyinin və ya Vazgen Sarkisyana münasibətdə güzəştsizliyinin əsasında, necə deyərlər, kənar ünsür də var idi. Proqramında Vazgen Sarkisyanın ortadan qaldırılması həlledici vəzifə hesab edilən Erməni İnqilabi Federasiyası "Daşnaksütyun"un ikinci prezidentin ətrafında böyük təsiri vardı.

1998-ci ildə Robert Köçəryan parlamenti buraxa və ya ən azı, Vazgen Sarkisyanı vəzifədən kənarlaşdıra bilərdi, lakin onun hər hansı bir təminatı yox idi ki, yeni seçkilərdə qalib gələcək. İkinci prezidentə şantaj siyasətinə etibar etmək qalırdı. Gah Vazgen Sarkisyan və Vano Siradegyan hədəf olurdu, gah da mediada, guya "yazıq" Köçəryanın "heyvan" Vazgen Sarkisyandan qorxub Dağlıq Qarabağa qaçması haqqında Prezident Administansiyasından buraxılan məlumatlar tirajlanırdı.

Robert Köçəryan gözəl anlayırdı ki, hakimiyyət məsələsi 1999-cu ilin parlament seçkilərində həll oluna bilər, ancaq, necə deyərlər, "Qarabağ klanı"nın şansları, xüsusən də Vazgen Sarkisyanla Karen Dəmirçiyanın ittifaq bağlamasından sonra çox məhdud idi. Parlament seçkilərində Robert Köçəryan-Serj Sarkisyan-Samvel Babayan üçlüyü tam cəbhə ilə Sarkisyan-Dəmirçiyan tandeminə qarşı mübarizə apardı, ancaq bu mübarizə uğursuz oldu. "Miasnutyun" ittifaqı parlament seçkilərində Robert Köçəryanı yarış zolağında geridə qoyaraq inamlı qələbə çaldı. Lakin ikinci prezidentin Ermənistan sərhədlərindən kənarda - Moskvada müttəfiqi vardı. Kreml heç bir zaman postsovet məkanında legitim hakimiyyətin formalaşması ilə, bunu öz maraqlarına çağırış hesab edərək, barışmazdı. Köçəryana hakimiyyət, ruslara isə total təsir lazım idi. Hər ikisinə də Vazgen Sarkisyan mane olurdu. Köçəryanla Putin arasında üzvi birləşmə məhz Vazgen Sarkisyanın qətl edilməsi və Ermənistanda rus vassal rejiminin yaradılması fonunda baş verdi". Bu qeyd edilənlərdən göründüyü kimi, Paşinyana yaxın bir media orqanı Putinə qarşı olduqca kəskin ittihamlar səsləndirib. Hətta Putinin Köçəryana dəstəyinin arxasında bu amilin durması da iddia olunur.

Ekspertlər bildirir ki, belə bir məsələnin erməni mediasında tirajlanmasından Paşinyan xəbərsiz deyil və o, Putinin ona qarşı artan təzyiqləri fonunda özünü erməni cəmiyyətində təmizə çıxarmaq üçün belə gedişlər edir. Amma erməni mediası yazır ki, belə ucuz gedişlərlə Paşinyan Putinin qəzəbini daha çox öz üzərinə çəkdiyini də unudur. Bunu rusiyalı politoloq Stanislav Tarasov da təsdiq edir. Onun sözlərinə görə, Avrasiya İqtisadi Birliyinin Ali Şurasının iclası çərçivəsində Ermənistana səfər edən Putinin Paşinyanla görüşdükdən sonra Bella Köçəryanla bir araya gəlməsindən Ermənistanın baş naziri lazımi nəticə çıxarmalı idi: "Putin cəzaçəkmə müəssisəsinə getmədi, elə deyilmi? Bu, həddindən artıq kəskin addım olardı. O, Bella Köçəryanı qəbul etdi. Bu, Paşinyana mesaj idi. Amma görünür, mesaj lazımi qaydada alınmayıb və Rusiyaya qarşı etirazların tətiklənməsi baş verir. Moskva sadəcə seyrçi qala bilməz. Ermənistanda baş verən indiki dalğalanmalar Rusiyanı sevindirmir". Bütün bunlar isə mütləq mənada, ekspertə görə, özünü müəyyən formada büruzə verəcək və bunu Paşinyan da bilməmiş deyil.

***Nahid SALAYEV***

# Paşinyan "Rusiya Dəmir Yolları"nın baş direktoru ilə də razılaşa bilmədi - Rusiya ilə pisləşən münasibətləri xilas etmək mümkün olmur...

**Oktyabrın 8-də Ermənistanın Baş naziri Nikol Paşinyan "Rusiya Dəmir Yolları" QSC-nin baş direktoru və idarə heyətinin sədri Oleq Belozerovu qəbul edib. Erməni mətbuatında görüşün nəticələri barədə məlumatlar məhduddur. Ümumi olaraq informasiya verilir. Qeyd edilib ki, ikitərəfli əməkdaşlığın gələcək inkişafına dair məsələlər müzakirə edilib.**



## *Əli Orucov: "Hər iki ölkə yaxşı anlayır ki, Ermənistan dəmir yollarının güzəştli istismarı əvvəlki kimi strateji əhəmiyyət kəsb etmir"*

Görüş barədə informasiyaların çox məhdud olması o qənaətə gəlməyə əsas verir ki, razılaşma əldə olunmayıb. Yəni Rusiya Ermənistan dəmir yollarının istismarı ilə bağlı güzəştli müqavilədən imtina etmək istəyir. Çünki bu, Rusiyaya sərf etmir. Başqa bir tərəfdən, Ermənistanda bununla bağlı araşdırmaların aparılması Rusiyanın narazılığına səbəb olub. Rusiyanın Ermənistan dəmir yollarının istismarı ilə bağlı güzəştli müqavilədən - konsessiyadan imtina etməsi ehtimalı Rusiyanın Ermənistan kommunikasiyalarına geopolitik marağını itirməsi ilə bağlı ola bilər. Belə nəticəyə son 10-12 ildə regionda baş verən hadisələrin ardıcıllığına və Rusiyanın niyyətinə baxaraq gəlmək olar. Hazırda regionda durum və Rusiyanın maraqları 2006-cı illə müqayisədə köklü şəkildə dəyişib və mümkündür ki, Moskva artıq Ermənistan dəmir yollarına görə məsuliyyət daşımaq istəmir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu yöndə tərəflər arasında fikir ayrılıqları qalmaqdadır: "Məsələ ondadır ki, "Rusiya Dəmir Yolları" ilə Ermənistanın müvafiq qurumu arasında dəmir yollarının güzəştli istismarı ilə bağlı müqavilə 2008-ci ildə imzalanıb. Bu müqavilədə Rusiyanın əsas məqsədi Cənubi Qafqazda möhkəmliyini qorumaq və dəmir yolu nəqliyyat daşımalarını nəzarətində saxlamaq idi. Rusiyanın Gürcüstana müdaxiləsindən sonra bu müqavilə əhəmiyyətini, demək olar ki, itirdi. Çünki bu yolla daşımalara maraq azaldı. Üstəlik, Ermənistan artıq Moskva üçün iqtisadi-strateji cəhətdən cəlbediciliyini itirməkdədir. Bakı-Tiflis-Qars dəmir yolunun tikilib istifadəyə verilməsi ilə bir çox məsələyə baxışların dəyişdirilməsini diqtə etdi. Ona görə də Nikol Paşinyanla RDY QSC-nin baş direktoru Oleq Belozerov arasında Ermənistanın istəklərinə uyğun razılaşma əldə etmək mümkün olmayıb. Hər iki ölkə yaxşı anlayır ki, Ermənistan dəmir yollarının güzəştli istismarı əvvəlki kimi strateji əhəmiyyət kəsb etmir. Daxili daşımalar da o qədər rentabelli və gəlirli deyil. Diqqətə onu da çatdırım ki, Ermənistan dəmir yolu xətləri bu ölkənin dağlıq relyefinə görə birxətlidir. Bu isə böyük ləngimələr və fasilələr yaradır. Rusiya BTQ-yə qoşulmağa və onun istismarında iştiraka can atır. İlk cəhdlər də, demək olar ki, Gürcüstanın narazılığına baxmayaraq, alınıb. Türkiyədə niyyət protokolu imzalanıb. Ona görə də Ermənistanın bu yöndə səyləri fiaskoya məhkumdur".

*"Rusiya BTQ-yə qoşulmağa və onun istismarında iştiraka can atır"*

***Vidadi ORDAHALLI***

# İsa Qəmbərin Müsavat başqanlığına üç namizəddən birinə açıq dəstəyinə digər iki iddiaçının reaksiyası...

**Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər partiyanın oktyabrın 12-də keçirilməsi planlaşdırılan qurultayında başqan seçkisinə dair mövqeyini açıqlayıb. Sabiq başqan "Facebook" səhifəsindən paylaşdığı "Onun uğurları Müsavatımızın, Müsavatın uğurları Azərbaycanımızın uğurları olacaq!" adlı yazıda bildirir: "2014-cü ilin sentyabrında - Müsavat Partiyasının 8-ci qurultayında başqanlığa namizədlərlə bağlı mən öz mövqeyimi açıqlamadım.**



## *Yadigar Sadıqlı: "İsa Qəmbərin də prosesə qoşulması və konkret mövqe ifadə etməsi həmin təşvişdən qaynaqlanır"*

## *Tofiq Yaqublu: "Biz İsa Qəmbərə deyə bilmərik ki, niyə Arif bəyi dəstəkləyirsən?"*

Bunun iki əsas səbəbi var idi. Birincisi, mənə elə gəlirdi ki, fikrimi açıqlasam, dəstəklədiyim aday asanlıqla qalib gələ bilər. Və nəticədə bir tərəfdən gerçək seçki yarışı baş tutmaz, digər tərəfdən, faktiki olaraq, mən varis müəyyənləşdirmiş olaram. Mən isə demokratik seçki yarışının Müsavata və cəmiyyətə faydalı olacağına inanırdım və varis müəyyənləşdirmək istəmirdim. İstəyirdim ki, məndən sonrakı başqanı və nəticədə partiyamızın növbəti mərhələdə siyasi kursunu müsavatçılar mənim təsirim olmadan müəyyənləşdirsinlər.

İkincisi, namizədlərdən bəziləri mənim öz mövqeyimi bildirməməyimi xahiş və təkid edirdilər. İndi isə - 9-cu qurultay ərəfəsində partiyamızda azad demokratik seçki ənənəsi o dərəcədə oturuşub ki, namizədlərdən heç biri mənə mövqeyimi nə bildirmək, nə də bildirməmək xahişi ilə müraciət etməyə ehtiyac duymur və bu məni sevindirir. Odur ki, indi mən də mövqeyimi açıqlaya bilərəm.

Qurultayda səs verəcəyim, başqan kimi görmək istədiyim namizəd Arif Hacılıdır. Bu mövqeyimin səbəbləri çoxdur".

İ.Qəmbər mövqeyini əsaslandırmaq üçün bir neçə səbəb göstərir və Arif Hacılını "böyük dövlət adamı" adlandırır və qurultay üzvlərinə "Arif bəyə səs verin!" deyə çağırış edir.

Qeyd edək ki, hazırda Müsavat başqanlığına üç nəfərin namizədliyi qeydə alınıb. Bunlar Arif Hacılının rəqibləri Tofiq Yaqublu və Yadigar Sadıqlıdır. İsa Qəmbərin belə açıq mövqe tutmasına onların hansı reaksiyanı verməsi maraq doğurur.

Başqanlığa namizəd Yadigar Sadıqlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İsa Qəmbərin belə mövqe tutacağını gözləyirmiş: "Hüquqi cəhətdən burada heç bir qəbahət görmürəm. Bu, artıq mənəvi olan bir məsələdir. Buna İsa Qəmbərin özü cavab versə yaxşı olar. Hesab edirəm ki, bu addım qüvvələr nisbətinə ciddi təsir edəcək. Buna baxmayaraq, mən israrlıyam. Sona qədər namizədliyimin üstündə duracam.Vəziyyət əvvəlki kimi dəyişməz qalarsa, Müsavatı qarşıda ciddi fəlakətlər gözləyir. Bundan əvvəlki qurultayda İsa Qəmbər konkret mövqe ortaya qoymadı. Bu dəfə isə bunu etdi. Hesab edirəm ki, buna onu vadar edən səbəblər olub. Çünki Arif Hacılının başqan seçilə bilməyəcəyi kimi təhlükəni hiss ediblər. İsa Qəmbərin də prosesə qoşulması və konkret mövqe ifadə etməsi həmin təşvişdən qaynaqlanır. Düzdür, İsa Qəmbər deyir ki, heç bu prosesə qoşulmasaydı belə Arif Hacılı udacaqdı. Belədirsə, nə etmək istəyirlər? Hakimiyyəti hər zaman 80-90 faiz səs toplamaqda ittiham edirlər. İndi həmin göstəricini təkrarlamağı düşünürlər? Bu beş il ərzində partiyanın işində heç bir irəliləyiş olmayıb. Hətta deyərdim ki, partiya tənəzzül həddinə çatıb. İsa Qəmbərin bu vəziyyətdən niyə məmnun qalması mənim özümə də maraqlıdır".

Başqanlığa digər namizəd Tofiq Yaqublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İsa Qəmbərin etdiyi hərəkətdə heç bir qəbahət görmür: "İsa Qəmbər partiyanın üzvü və eyni zamanda, qurultay nümayəndəsidir. Bu statusda olan adamın istənilən namizədi açıq şəkildə dəstəkləmək kimi bir hüququ var. Bu, tamamilə açıq və demokratik bir prosesdir. Dəyərləndirmələr subyektiv amillərə bağlıdır. Biz İsa Qəmbərə deyə bilmərik ki, niyə Arif bəyi dəstəkləyirsən? Görünür, onun fəaliyyəti İsa Qəmbəri daha çox qane edir. Eləcə də digər namizədləri dəstəkləyə bilən şəxslərlə bağlı biz nəsə deyə bilmərik. Qəbul edirəm ki, İsa Qəmbərin mövqeyinin nəticəyə təsiri olacaq, ancaq biz demokratiyadan danışırıqsa, heç bir halda onun da hüquqlarını məhdudlaşdıra bilmərik".

***Məhəmmədəli QƏRİBLİ***

# "Xalq onlara hakimiyyət mandatı verməyi ağlına belə gətirmir"

**Azərbaycan Respublikasında vətəndaşların sərbəst toplaşmaq azadlığı Konstitusiyanın 49-cu maddəsi ilə və digər qanunvericilik aktları ilə tənzimlənir. Konstitusiyamıza görə, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı, müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.**

Azərbaycan hakimiyyətinin sərbəst toplaşmaq azadlığına baxışı "cəmiyyətin iradəsi təkcə dövlət qurumlarından xalqa doğru deyil, daha çox xalqdan dövlət qurumlarına sirayət etməlidir" fəlsəfəsinə əsaslanır. Bu mənada, hakimiyyət heç zaman vətəndaşların sərbəst toplaşmasına, öz fikir və rəylərini açıq ifadə etməsinə mane olmayıb, istər paytaxt Bakıda, istərsə də bölgələrimizdə insanların bir araya gələrək kollektiv düşüncələrini ifadə etməsinə daim şərait yaradıb. Lakin o da nəzərə alınmalıdır ki, heç bir ölkədə ayrı-ayrı qurumların vətəndaşların toplantı və nümayiş hüququndan bəhrələnərək istədiyi zaman və istədiyi məkanda aksiya keçirməsi təcrübəsi mövcud deyil. Çünki bütün dünya ölkələrində hakimiyyət orqanları insanların etiraz hüququna şərait yaratmaqla yanaşı, həm də qanunların tələblərinə əməl olunmasına, aksiyaların təhlükəsizlik və ictimai asayişin təmin edilməsinə, vətəndaşların dinc yaşayış və istirahət hüququna, nəqliyyatın ahəngdar fəaliyyətinə maneçilik törətməməsinə və digər məsələlərin həllinə görə də məsuliyyət daşıyırlar. Buna görə Azərbaycanda da, digər ölkələrdə olduğu kimi, təşkilatların siyasi fəaliyyət azadlığına, insanların sərbəst toplaşmaq hüququna xüsusi önəm verilməsinə baxmayaraq, beynəlxalq standartlara uyğun olaraq, aksiyaların təşkil edilməsi proseduru ilə bağlı müəyyən şərtlər, qadağalar, qanunların pozulduğu təqdirdə isə hüquqi sanksiyalar mövcuddur.



Bütün bunlar sadə reallıqdır, siyasətlə məşğul olan hər kəsin bildiyi və bilməli olduğu gerçəklikdir. Ancaq çox təəssüflər olsun ki, 25 ildən artıqdır Azərbaycanın bir çox radikal müxalifət dairələri, onların sırasında Əli Kərimlinin rəhbərlik etdiyi AXCP bu sadə həqiqəti dərk etmək istəmir, təşkil etdikləri etiraz tədbirlərini cəmiyyətin ümumi maraqlarını, rifahını ifadə edən vətəndaş aksiyası kimi deyil, iğtişaşlar və hərc-mərclik vasitəsi kimi istifadə etməyə çalışırlar. Müstəqillik dövründə biz dəfələrlə şahidi olmuşuq ki, 1990-cı illərdə həmin insanların iştirakı ilə formalaşmış stereotiplər, öz məqsədinə çatmaq üçün istənilən vasitəni məqbul hesab etmək mərəzi, geniş xalq kütləsinin istəyinə və mövqeyinə hörmətsizlik, dövlət əmlakına ziyan vurmağa çalışmaq və s. xüsusiyyətlər radikal və dağıdıcı müxalifətə rəhbərlik edən belə şəxslərin psixologiyasının mühüm bir elementinə çevrilib və artıq özünü qeyri-şüuri formada büruzə verir. Ən acınacaqlısı isə budur ki, ötən dövr ərzində ölkəmizdə yüksələn ictimai şüur da bu radikalların dağıdıcı instinktlərini sağalda, dəyişə və çağdaşlaşdıra bilməyib.

Bəli, bu gün dünya da, Azərbaycan da sürətlə dəyişir. Müxtəlif ölkələrdə müxalif qüvvələr siyasi marketinq və innovativ texnologiyalar vasitəsilə öz tərəfdarlarının sayını, elektoral dəstəyini artırır, özlərinin ənənəvi müxalifət bazasından kənardakı sosial seqmentlərə xitab edərək hərəkətə gətirir və bununla təşkilatlarının rəqabət qabiliyyətini gücləndirirlər. Lakin bizim haqqında söhbət gedən müxalifət dairələri dünyada və onun bir parçası olan Azərbaycanda dəyişən reallıqlara qətiyyən adekvat reaksiya göstərə bilmir, öz konstruktiv fəaliyyətləri ilə siyasi palitranı zənginləşdirib, keyfiyyət və məziyyətlərini yeniləməkdə acizdirlər. Təbii ki, xalq da onların hərəkətlərini görür, təhlil edir, müqayisə aparır və bir daha qəti qənaətə gəlir ki, onun maraq və mənafelərinin ən ideal təmsilçisi, sosial təkamül prosesindəki bayraqdarı bu siyasi düşərgələrdə fəaliyyət göstərən şəxslər deyil, məhz Prezident İlham Əliyev və onun iqtidarıdır. Məhz elə bu səbəbdən də müdrik xalqımız radikal müxalif düşərgəsinin nə zamansa dəyişəcəyinə, müasir dövrün tələblərinə uyğun yenidən təşkilatlanacağına inanmır, ayrı-ayrı siyasi qrupların özünü "lider" adlandırmaqdan zövq alan personalarının sosial şəbəkələrdəki "bloqqer inqilabları"na biganə yanaşır və onlara hakimiyyət mandatı verməyi ağlına belə gətirmir.

Budur, AXCP-yə sədr olduğu 20 ilə yaxın bir müddətdə, hətta ona etimad göstərmiş partiya funksionerlərini və fəallarını öz ideoloji-siyasi məhvərində saxlaya bilməmiş, didişmə, parçalanma və tənəzzüldən başqa partiyaya heç nə "bəxş etməmiş" Əli Kərimlinin "siyasətçi qabiliyyəti". Elə bu "qabiliyyət"in nəticəsidir ki, Bakı şəhər İcra Hakimiyyətinin paytaxtın Lökbatan massivində ayırdığı meydana aparmağa tərəfdar tapmır, patoloji həddə çatmış "tükənmişlik sindromu"nu ört-basdır etmək üçün təyin etdiyi 50 nəfərlik piketi belə doğru-düzgün təşkil edib keçirə bilmir. Piketin təyin olunduğu ərazinin ətrafında lokal qrupların qarşıdurma yaratmaq cəhdləri, ətrafdan keçən insanlara, polisin qanuni tələblərinə hörmətsizlik, fərqli fikirdə olan insanlara qarşı dözümsüzlük və piketdən sonra nümayiş etdirdikləri yolverilməz hərəkətlər, etik normalardan uzaq şüarçılıq və s. kimi hərəkətləri görən hər bir vətəndaşda təbii sual yaranır: öz partiyasını və maksimum 50 nəfərin iştirak etməli olduğu bir piketi idarə edə bilməyən "liderlər" xalqın və dövlətin məsuliyyətini necə daşıya bilər? Xalqımız onu da yaxşı bilir ki, bunlar xarici anti-Azərbaycan mərkəzlərindən aldığı maliyyənin şirəsi ilə Azərbaycan hakimiyyətinə "diş qıcayırlar". Ancaq həqiqət budur ki, "qıcanan bu dişlər" kəskin kariyesə məruz qalıb, onların stomatoloji müayinə və müalicəsinə böyük ehtiyac var. Belə təşəbbüsü, təbii ki, yeni nəsil irəli sürməlidir və yəqin ki, sürəcəkdir. Hakimiyyəti və müxalifəti bütün zamanlarda və bütün ölkələrdə xalq formalaşdırır. Odur ki, siyasi sistemin önəmli bir parçası olan müxalifətin Azərbaycanda da yenidən formalaşmasına, günün tələblərinə uyğun olaraq yenilənməsinə, xalqın istək və arzusuna uyğun instituta çevrilməsinə böyük ehtiyac hiss olunur. Ölkəmizi və xalqımızı təmsil edən hər bir siyasi partiyanın gələcək milli müqəddəratımızı həll edə biləcək effektiv təsisata, ümummilli məsələlərin həlli ilə bağlı rasional təkliflər verə biləcək düşüncə mərkəzinə və təkmil idarəçilik institutuna çevrilməsi, müxalif düşərgənin başdan-başa yenilənməsi, müasir, vətənpərvər, bacarıqlı gənclərin önə çıxması ictimai həyatımızın ən vacib məsələlərindən biri olaraq qalır.

***Əli HƏSƏNOV***
***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan "Qarabağ Ermənistandır"ın fiasko olduğunu anladı - Mnatsakanyan qurban verilir...

**Rusiya-Ermənistan münasibətlərində yaşanan problemlərin Dağlıq Qarabağ münaqişəsinə hansı formada təsir göstərə biləcəyi indi ekspert dairələrində ən çox müzakirə edilən mövzulardan biridir. Belə hesab edilir ki, Moskva Qarabağ məsələsində müəyyən yeniliklər etməyə hazırlaşır və Rusiya xarici işlər naziri Sergey Lavrovun "Valday" klubunda Dağlıq Qarabağla bağlı çıxışı bu fonda heç də təsadüfi deyil.**

Hesab olunur ki, Sergey Lavrovun Dağlıq Qarabağla bağlı səsləndirdiyi fikirlər prezident Vladimir Putinin İrəvanda Nikol Paşinyan iqtidarına göstərdiyi münasibətin davamıdır. Eyni zamanda bu, Paşinyanın Qarabağı Ermənistan ərazisi görməsinin Rusiya tərəfindən də mənfi qarşılanmasının daha bir təzahürü sayılır. Burada xatırlatmaq yerinə düşərdi ki, Paşinyan Qarabağla bağlı Xankədidə məlum bəyanatı verdikdən sonra Azərbaycan ATƏT-in Minsk Qrupu ölkələrinə müraciət edərək, onun bu fikrinə münasibət bildirmələrini istəmişdi. Uzun müddət sükut olsa da, məsələ ilə bağlı ilk reaksiyanı məhz Rusiya tərəfi verdi. Rusiya XİN sözçüsü Mariya Zaxarovanın səsləndirdiyi fikirlər və daha sonra Lavrovun çıxışı birmənalı olaraq göstərdi ki, Rusiya Xankəndidə səsləndirilmiş fikirləri qəbul etmir. Çünki baş verənlər Rusiyanın da daxil olduğu Minsk Qrupu formatının fəaliyyətini heçə endirir, eyni zamanda Moskvanın cənub sərhədlərində heç də istəmədiyi yeni savaşın başlanmasını şərtləndirir. Digər tərəfdən, Rusiya prosesə seyrçi qalmaqla Azərbaycanla dinamik inkişaf edən münasibətlərini də korlamaq istəmir. Elə bundan irəli gəlir ki, Prezident İlham Əliyevin "Valday" klubundakı çıxışı da Rusiya siyasi elitası tərəfindən olduqca yüksək qiymətləndirildi. Bütün bunlar fonunda indi Moskvanın Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" ifadəsini tənqid etməsi Ermənistanda getdikcə daha çox ajiotaja səbəb olur. İrəvanda açıq etiraf edirlər ki, Moskvanın, xüsusən də Lavrovun qiymətləndirməsi təşviş doğurur, çünki Ermənistan danışıqları uğursuzluğa uğradan tərəf kimi özünü təsdiqləyir. Erməni siyasi şərhçi Akob Badalyanın sözlərinə görə, bu məsələ bir qüvvənin və ya bir siyasi xadimin edə biləcəyi iş deyil: "Buna görə də, 5 avqustda səslənən fikirlər bizə ciddi problemlər yaradır. Qarabağı Ermənistan kimi görürüksə, o zaman dünya ilə danışmalıyıq, çünki real dünya siyasətində dünya, daha doğrusu regional güc mərkəzləri qərar qəbul edən və bunun üçün cavabdehlik məsuliyyəti daşıyan tərəflə hesablaşacaq, onu nəzərə alacaq. Amma Ermənistan o həddə deyil ki, onunla danışıqlar aparlısın, dedikləri qəbul olunsun. Ona görə də Qarabağın Ermənistan kimi görülməsi məsələsi problem yaradır və bunu çox uzağa getməyərək Minsk Qrupunun, xüsusən də Rusiyanın sərgilədiyi mövqedə aydın görmək olar".

Bununla yanaşı, Badalyan onu da bildirib ki, güc mərkəzlərini aldatmaq mümkün deyil və onlar Ermənistan üzündən danışıqların uğursuzluğa uğramasını qəbul edirlər. Bu isə İrəvan üçün ciddi problemlərin yaranması deməkdir. Ermənistanda nəşr edilən "Past" qəzeti də məsələyə bu prizmadan yanaşır. Qəzet hətta vurğulayır ki, baş verənlərə görə özünü təmizə çıxarmaq məqsədilə Nikol Paşinyan xarici işlər naziri Zöhrab Mnatsakanyanı qurban verməyə hazırlaşır. Qəzetə danışan mənbələr deyiblər ki, bu günlərdə Mnatsakanyanın istefası yenidən gündəmə gəlib, çünki baş nazir Qarabağ məsələsi ilə bağlı hadisələrin inkişafından, xüsusən də Rusiyanın mövqeyindən hiddətlənib: "Belə ki, bu günlərdə "Valday" klubunun illik iclası zamanı Rusiya xarici işlər naziri kifayət qədər gözlənilməz və kəskin bəyanatla çıxış edib. Qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair siyasi proses tormozlanıb. Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" sözlərini xatırladan Lavrov, faktiki olaraq, Ermənistanın ünvanına ittiham irəli sürüb. Üstəlik yəqin ki, ilk dəfə. Və budur, bizim mənbələr təsdiq edirlər ki, bu bəyanatdan sonra hiddətlənmiş Paşinyan Zöhrab Mnatsakanyanı işdən azad etməyə hazırlaşır. Çünki hesab edir ki, o, Rusiya ilə lazımı iş aparmayıb və "Qarabağ Ermənistandır, vəssalam" bəyanatının tam mahiyyətini, ümumiyyətlə, Ermənistanın indiki hakimiyyətinin mövqeyini izah etməyib". Mənbələr qəzetə onu da bildiriblər ki, indiyə qədər, adətən Azərbaycan tərəfini "hərbi bəyanatlarına görə danışıqları tormozlamaqda" ittiham edirdilər. İndi isə vəziyyət dəyişib və Ermənistan ittiham obyektidir. Elə erməni politoloq Aram Amatuni də qeyd edir ki, hadisələrin gedişi İrəvanın daha pis vəziyyətə düşdüyünü göstərir: "Rusiyanın yanaşması Ermənistan üçün qətiyyən məqbul deyil. Bu fonda diqqətçəkən məqam İrəvan görüşündən iki gün sonra Rusiya prezidenti Putinin Soçi şəhərində "Valday" klubunda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşməsidir. Əslində bu, Avrasiya İqtisadi Birliyinin İrəvan sammitindən və onun siyasi kontekstindən narazılıq idi və şübhəsiz ki, yeni regional siyasi rəhbərliyin formalaşmasına sübutdur. Yeni regional siyasi rəhbərliyin Azərbaycanla formalaşması, şübhəsiz ki, Qarabağ münaqişəsinə də təsirini göstərəcək və Lavrovun Ermənistanı tənqid etməsi bu mənada təsadüfi deyil. Moskva seçimini edib".

Belə vəziyyətdə digər erməni politoloq Arman Melikyan da Ermənistanın böyük problemlərinin başlanmasının qaçılmaz olduğunu vurğulayıb: "Dağlıq Qarabağ məsələsi üzrə yeni danışıqlar platforması formalaşdırmadan, nəinki danışıqlar prosesində mövqelərimiz zəifləməyə davam edəcək, həmçinin cəbhə xəttində yeni problemlər ortaya çıxacaq". Onun sözlərinə görə, bu durumda Dağlıq Qarabağ məsələsi üzrə yeni danışıqlar platforması formalaşdırmaq və işə salmaq üçün peşəkar fəaliyyət lazımdır.

Melikyan qeyd edib ki, burada "Valday" müzakirə klubunun işlərinə Azərbaycan prezidenti İlham Əliyevin dəvət olunmasını nəzərə almaq lazımdır: "Xarici işlər naziri Lavrov Ermənistana yönəlik məlum ittihamla bəlkə də İlham Əliyevi məmnun etməyə çalışıb. Mənim fikrimcə, Rusiya tərəfindən nümayiş etdirilən siyasət kontekstində Ermənistan və Azərbaycan üçün tamamilə müxtəlif rollar müəyyənləşdirilib. Amma faktdır ki, bu gün vasitəçilər artıq açıq mətnlə Ermənistanı qeyri-konstruktiv adlandırırlar. Bunun səbəbi "Qarabağ Ermənistandır, vəssalam" kimi hesablanmamış, populist bəyanatlardır. Bu, təhlükəsizlik də daxil olmaqla, bizim üçün ciddi problemlər yarada bilər".

Rusiyalı ekspert İqor Korotçenko Ermənistanda yaranan bu narahatlığın əslində əbəs olmadığını vurğulayır. Onun fikrincə, Moskva bu prosesdə Azərbaycanın mövqeyini dəstəkləyir: "Səbəb sadədir. Rusiya ilə Ermənistan arasında gərginlik Paşinyan hakimiyyəti ələ keçirəndən bəri mövcuddur. Gərginliyin dərəcəsi ikinci sualdır. Sergey Lavrov Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək Rusiyanın prinsipial mövqeyini nümayiş etdirdi. Bu, nə şübhə, nə də müzakirəyə açıq məsələdir. Digər tərəfdən, Ermənistana təzyiqin praktiki mexanizmləri hansılardır və İrəvanın beynəlxalq birliyin tələblərini yerinə yetirməsi, işğal olunmuş əraziləri tərk etməsi üçün nə etmək olar? Bir daha vurğulayıram: "Valday"da İlham Əliyevin Azərbaycan nöqteyi-nəzərindən yanaşmasını ekspert cəmiyyətinin geniş dairələrinə çatdırması çox yaxşı haldır. Qeyd etmək lazımdır ki, İlham Əliyevin çıxışı təhlükəsizlik üzrə aparıcı beynəlxalq ekspertlər tərəfindən dinlənilib. Bu, məlumatları dünyaya çatdırmağa kömək edəcək güclü və təsirli addımdır. Odur ki, Azərbaycan, "Valday" Forumu da daxil olmaqla, bütün imkanlardan istifadə edərək mövqeyini nümayiş etdirir. Mənim fikrimcə, bu siyasət hər zaman yenilənməli və daim aparılmalıdır. Təkcə Xarici İşlər Nazirliyinin, yüksək vəzifəli şəxslərin səyləri kifayət deyil. Qarabağ problemi daim qaldırılmalı və müzakirə edilməlidir. Azərbaycan bu istiqamətdə fəal işləyir. "Valday"da isə Azərbaycan prezidentinin sözləri diqqətlə dinlənildi, böyük rezonans doğurdu və öz növbəsində, ekspertlərə Qarabağ problemini, ərazilərin işğaldan azad edilməsinin vacibliyini bir daha vurğulamaq üçün əsas verdi".

Bütün bunlar fonunda siyasi təhlilçilər bildirir ki, yaranmış vəziyyətdə Qarabağ məsələsində İrəvanın narahat olmasına yetərincə səbəb var. Əsas səbəblərdən biri isə Rusiyanın Qarabağ münaqişəsinə yanaşmasında olan dəyişikliklərdir. İrəvanın yürütdüyü qeyri-konstruktiv siyasət, bölgədə və dünyada mövcud olan reallıqları nəzərə almaması artıq Moskvada ciddi etiraz doğurur. Analitiklər belə qənaətdədir ki, indiyə qədər rəsmi İrəvan ona edilən xəbərdarlıqları da dəyərləndirə bilmədiyi üçün Kremlin, Qarabağ məsələsi də daxil olmaqla, Ermənistana qarşı digər müstəvilərdə daha sərt addımlar atması qaçılmazdır.

Digər tərəfdən o da faktdır ki, ötən ilyarım ərzində Paşinyan təkcə Rusiya ilə yox, eyni zamanda ABŞ və Avropa İttifaqı ilə münasibətlərini də, demək olar ki, korlayıb. Təkcə bir faktı xatırlatmaq kifayətdəir ki, bundan əvvəl BMT Baş Assambleyasının 74-cü sessiyasında iştirak etmək üçün o, ABŞ-da səfər etmişdi. Lakin Paşinyan ABŞ-da nə Dövlət Departamentində, nə Konqresdə, nə də Ağ Evdə hansısa görüş keçirə bildi. Eynilə Avropa ölkələri də ondan məsafə saxlayır. Belə demək olarsa, artıq bütün dünya Ermənsitana, onun rəhbərinə qeyri-ciddi yanaşır. Təbii ki, bu hal da Qarabağ münaqişəsinin çözümündə Azərbaycan üçün daha əlverişli şərait formalaşdırır. Bunun nəticələri isə yaxın tezlikdə özünü mütləq şəkildə büruzə verəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# "Parlamentdə bəzi deputatların əməllərinə baxanda adamın o mandata heyfi gəlir"

## *Samir Adıgözəlli: "Mən dövlətçilik yolunda sabitqədəm addımlamışam"*

**Cavan olmasına baxmayaraq, çoxdandır ki, siyasətdədir. Hətta dediyinə görə, lap uşaq vaxtlarından proseslərin içərisindədir. Həm siyasəti, həm diaspor quruculuğunu, həm də QHT işini eyni vaxta görə bilir. Tez-tez metroda rastlaşdığımızdan bilirik ki, ictimai nəqliyyatdan istifadə edir. Bir neçə dəfə deputatlığa namizəd olsa da, istəyini reallaşdıra bilməyib. Mediaya çox açıq adam olsa da, şəxsi həyatı barədə indiyə qədər çox danışmayıb. Məhz bu səbəbdən də biz qərara gəldik ki, sadaladığımız keyfiyyət və parametrləri özündə birləşdirən Samir Adıgözəlli ilə səmimi söhbət edək.**

**- Samir bəy, Sizə elə gəlmirmi ki, çox dinamiksiniz, sanki istədiyinizi ala bilmirsiniz deyə, müxtəlif sahələrə meyl edirsiniz...**

- Müşahidələr müxtəlif ola bilər, sizin sualınızın bir hissəsi ilə razılaşmağa məcburam. Dinamikəm, amma heç kim istədiyinin hamısını əldə etməyə qadir deyil.

**- Təsadüfən demirik, Siz uzun illər əvvəl, hələ gənc yaşlarınızda partiya yaratdınız. Nə oldu onun axırı?**

- Tamamilə doğru deyirsiniz. 23 yaşım olanda partiya sədri idim. Bu, Azərbaycan siyasətinin çox qaynar dönəminə təsadüf edir. 90-cı illərin sonu. 1999-cu ildə biz milliyyətçi ideologiya üzərində qurulan Böyük Millət adlı partiyanı təsis etdik.

**- Hazırda fəaliyyət göstərirmi?**

- Gəlin özümüzü aldatmayaq, siz Azərbaycanda partiyaların fəaliyyətini görürsünüzmü? Bir-iki partiyanı çıxmaqla, qalanları kağız üzərindədir. Mən real işi xoşlayıram. Formalizmdən uzağam.

**- Partiya fəaliyyətdə olanda nəsə iş görürdünüz?**

- Bəli, biz uzun müddət fəaliyyət göstərdik. Bu gün Azərbaycan siyasətində, jurnalistikasında, dövlət idarəetməsində bizim şinelimizdən çıxan kifayət qədər kadr var. Qeydiyyatdan keçməsək də, güclü sosial bazaya malik idik. Azərbaycanın milli, dövləti maraqlarının tələb olunduğu yerdə konkret addımlar atırdıq. Bunların hamısı o vaxt KİV-də işıqlandırılıb. Canlı görənlər də görüb.

**- Deyəsən partiyanın adını daşıyan bir qəzet də çıxarırdınız...**

- Mən həm də sizin həmkarınızam (gülür). Bəli, eyniadlı qəzeti təsis etmişəm. Çoxdandır fəaliyyət göstərir. Hazırda o adda saytımız da var. Operativ işləyir, hər gün yenilənir.

**- Səhv etmiriksə, jurnalistikaya görə həbs həyatı da yaşamaq qismətiniz olub...**

- Doğru deyirsiniz. Mənim rəhbərlik etdiyim qəzetdə çox tanınmış adamın yazdığı bir yazıya görə mən həbs edildim. Yazının müəllifi rəhmətə getdiyi üçün adını çəkmək istəmirəm. Onu hamı tanıyır. Akademik Abel Məhərrəmov iddiaçı idi. Tələbi o idi ki, yazının müəllifi cəzalansın. Mən onun adını vermədim, məsuliyyəti boynuma götürdüm. Amma o adam həbsxanada yanıma siqaret də gətirmədi. Mən çox azsaylı jurnalistlərdən idim ki, sırf yazıya görə həbs edilmişdim.

**- Həbsxanada çox qaldınız?**

- Xeyr, məni ilyarım müddətinə azadlıqdan məhrum etmişdilər. 8 ay sonra Prezident məni əfv etdi. Çoxlu təkliflər vardı ki, adımı siyasi məhbus kimi qeyd etsinlər. Razılaşmadım. Çünki istəməzdim ki, mənim adımla ölkəmə təzyiqlər etsinlər.

**- Abel Məhərrəmovla sonra görüşdünüzmü?**

- Bəli. Çox peşman olduğunu dedi. O da bilirdi ki, həmin işin təşəbbüskarı mən olmamışam.

**- Nə yazmışdınız?**

- Cavanlıq idi. İndiki yaşım olsaydı, o məqaləni dərc etməzdim. Çox sərt və təhqirin yer aldığı bir yazı idi. Kimsə mənim saf hisslərimdən istifadə edib, öz düşməni ilə belə vuruşmağı qərara almışdı. Bu da bir təcrübəydi qazandıq.

**- Həbsdən sonra nə işlə məşğul oldunuz?**

- Həbsdən sonrakı ömrümün böyük hissəsi diaspor quruculuğu, təbliği sahəsində keçib. İsmayıl Ağayevlə BDM adlı təşkilatı qurduq. Çox aktiv fəaliyyətimiz olub.

**- Deyəsən Sabir Rüstəmxanlının da qurumunda təmsil olunursunuz...**

- Bəli, mən həm də Dünya Azərbaycanlıları Konqresi Mərkəzi İcra Aparatının rəhbəriyəm.



**- Yeni bir təşkilat da təsis edibsiniz deyəsən...**

- İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzi (İSBAM) adlı qeyri-hökumət təşkilatına rəhbərlik edirəm. Bu təşkilatın təsisçisi rəhmətlik professor Vaqif Arzumanlı olub. O, dünyasını dəyişəndən sonra QHT fəaliyyətsiz idi. Biz onu yenidən qeydiyyatdan keçirdik. İdarə Heyətinin qərarı ilə mən sədr seçildim.

**- Yeni təşkilat olsa da, çox aktiv təsir bağışlayır. Qrant alırsınızmı?**

- Bəli, QHT-lərə Dövlət Dəstəyi Şurasından ilk layihəmizi keçirdik. Azərbaycanın tanınmış şairi Nəsiminin 650 illiyi ilə bağlı silsilə tədbirlər keçirəcəyik. Artıq start vermişik. Bu günlərdə möhtəşəm bir tədbirimiz zabitlər evində baş tutdu. Bu ayın 16-19 arası isə Türkiyədə tədbirlərimiz olacaq. Bir sıra universitetlərdə "Nəsimi günü" keçirəcəyik.

**- Verilən qrantın hamısını tədbirə xərcləyirsiniz, yoxsa özünüzə də qalır?**

- Bax, dediyiniz məsələni mən edə bilmərəm. Daim buna qarşı olmuşam. İnsan, ilk növbədə, ona göstərilən etimadı doğrultmalıdır. Sonra isə öz adına hörmət etməlidir. Mənimlə çalışanlar bilir ki, belə işlərdə maksimum şəffaflığın tərəfdarıyam.

**- Bir sıra işləri paralel həyata keçirirsiniz, çatdırmaq olurmu?**

- İnanın ki, çox çətindir. Amma nə etməliyik, gərək etimadı doğruldaq.

**- Şəxsi həyatınızla bağlı çox az məlumat var. Bəlkə bir-iki suala cavab verəsiniz...**

- Olar, bunun ictimailəşməsinin tərəfdarı olmamışam. Ona görə məlumat azdır.

**- Sizin "Facebook" səhifənizi izləyəndə belə təəssürat yaranır ki, ilin böyük hissəsini xaricdə olursunuz. Bu, ailədə problem yaratmır ki?**

- Mən ailəliyəm, iki övladım var, bir oğlan, bir qız. Oğlumun adı Atilladır, qızımın adı isə Zəhradır. Artıq onlar mənim iş rejimimə alışıblar. Bilirlər ki, iş üçün səfər edirəm.

**- Təşkilatınızın ofisi varmı?**

- Xeyr, yoxdur. Bir dostun ofisində işləri görürük. Sizi inandırım ki, mənim heç evim də yoxdur.

**- Doğrudan mənziliniz yoxdur?**

- Bəli. Mən kirayədə yaşayıram. Özü də ucuz olsun deyə, Bakının Məhəmmədi kəndindən ev tutmuşam. Şəhərə gedib-gəlməyim də zülmlə olur. Nə edim, məcburam.

**- Nə əcəb bu yaşa qədər mənzil əldə edə bilməyibsiniz?**

- Maraqlı sualdır. 43 yaşım var. Bu illər ərzində mən nə işlə məşğul olmuşam ki, ev ala bilim? Mənim işim siyasət, diaspor, jurnalistika olub. Maddi vəziyyətim heç vaxt imkan verməyib ki, ev alım. Atadan qalan evi də ailənin məndən kiçik olan övladına verdik.

**- Dövlət qurumlarına bu barədə müraciət edibsiniz?**

- Mən ilk dəfədir bu məsələni ictimailəşdirirəm. Bir neçə ay əvvəl isə ölkə rəhbərliyinə müraciət etmişəm.

**- Cavab nə oldu?**

- Hələ ki, cavab verilməyib, ancaq əminəm ki, cənab Prezident bilsə, mütləq mənə ev verər. Çünki mən dövlətçilik yolunda sabitqədəm addımlamışam.

**- Oğlunuzun adı Atilladır. Yəqin Siz veribsiniz bu adı? İstəyirsinizmi o da siyasi yolla addımlasın?**

- Bəli, adını mən qoymuşam. Adın insan həyatında rolu böyükdür. Övladlarım çox vətənpərvərdilər. Nə ilə məşğul olacaqlarını bilmirəm, ancaq hiss edirəm ki, qanlarında himnə, vətənə, millətə böyük sevgi var.

**- Həyat yoldaşınız da ictimai aktiv insandır?**

- Xeyr, ali təhsilli olsa da, evdar xanımdır.

**- Ölkədəki vəziyyət Sizi qane edirmi?**

- Mən, birmənalı olaraq, Prezidenti dəstəkləyirəm. Ona heç bir alternativ görmürəm. Ancaq idarəetmədə ciddi islahatlara ehtiyac var. Məmur korpusunun məsuliyyəti artırılmalıdır. Bir çox narazılığı məhz məmurlar yaradır. Hamımız bu məsələdə cənab Prezidentə dəstək olmalıyıq.

**- Türkiyə siyasi cəməesi ilə yaxşı əlaqələrinizin olduğu bildirilir. Doğrudurmu?**

- Bəli, mənim MHP, "Ülkü Ocaqları" və başqa partiyalarla yaxşı münasibətim var. Hətta onların sırasında yaxın dostlarım da var. Böyük Birlik Partiyasının başqanı Musin Yazıcıoğlu ilə yaxın dost olmuşam.

**- Siz parlamentdə təmsil olunmağa meylli insansınız. Növbəti seçkidə namizədliyinizi verəcəksiniz?**

- Parlamentdə bəzi deputatların əməllərinə baxanda adamın o mandata heyfi gəlir. Ona görə də hesab edirəm ki, mandat elə bizim kimi, onun qədrini bilənlərin əlində olmalıdır.

*Məhəmmədəli*
*QƏRİBLİ*

**ABŞ prezidenti Donald Trampın Türkyəni iqtisadi cəhətdən məhv edə biləcəyi ilə bağlı yeni təhdidindən sonra qardaş ölkədə dollar-lirə kursunun perspektivi ilə bağlı müxtəlif fikirlər səsləndirilir. ABŞ-ın yenə Türkiyəyə qarşı iqtisadi hücumları fonunda lirənin kəskin ucuzlaşması istiqamətində addımlar ata biləcəyi istisna olunmur.**

# ABŞ-ın "dollar ekspansiyasına" qarşı yeni Türkiyə-Rusiya sazişi - Azərbaycanın da qoşulması üçün möhkəm əsaslar var...

## *Milli valyutalarla ticarət dönəmi başlanır*



Belə bir vaxtda Ankara ABŞ üçün heç də xoş olmayan bir addım atıb.

Məlumatlara görə, Rusiya və Türkiyə milli valyutalarla ticarət və ödənişlərlə bağlı saziş imzalayıb. Bildirilir ki, Rusiya Maliyyə Nazirliyi ilə Türkiyənin Xəzinədarlıq və Maliyyə Nazirliyi arasında imzalanan razılaşma banklararası əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi, iki ölkənin biznes subyektləri arasında fasiləsiz ödənişlərin təmin edilməsi məqsədi daşıyır. Rusiya tərəfindən sazişi maliyyə naziri Anton Siluanov, Türkiyə tərəfdən isə Xəzinə və maliyyə naziri Berat Albayrak imzalayıb. Burada əsas məqsəd inkişaf və Rusiya ilə Türkiyə arasındakı ticarətdə rubl və lirənin istifadəsinə tədricən keçid, müvafiq maliyyə bazarı infrastrukturunun yaradılması, şirkətlər üçün milli valyutanın cəlbediciliyinin artırılmasıdır. O da vurğulanır ki, sazişin imzalanması Rusiya ilə Türkiyə arasında qarşılıqlı faydalı və bərabər ticari-iqtisadi əməkdaşlığın daha da genişlənməsi, inkişafı üçün vacib bir addımdır. Qeyd edək ki, bir çox ölkələr dolların iqtisadiyyatda hegemonluğundan yaxa qurtarmaq məqsədilə milli valyutalarla beynəlxalq iş aparmaq üçün hərəkətə keçib. Bunlar arasında Rusiya, Türkiyə və Çin kimi nəhəng iqtisadiyyatlı ölkələr diqqət cəlb edir. İndi Türkiyənin atdığı addımlar fonunda ABŞ-ın dollar üzərindən ona təsiri əhəmiyyətli dərəcədə azalır.

Ümumiyyətlə, Rusiya və Türkiyə müəyyən müddətdir ki, ticarəti milli valutalar üzərindən aparmağı düşünür. Qeyd olunan xüsusda müəyyən ilkin addımlar atılır. Belə ki, Moskva Birjası türk lirəsi ilə əməliyyatlara başlayıb. Xatırladaq ki, daha əvvəl Türkiyə Rusiyadan aldığı raketdən müdafiə sistemlərinin ilkin avansını da məhz milli valyutada ödəmişdi. Belə ki, Türkiyə "S-400" Hava Hücumundan Müdafiə Sisteminin alışı üçün rublla avans ödənişin həyata keçirmişdi. İndi isə, görünür, tərəflər milli valyutada alış-verişin həcmini daha da genişləndirəcək. Elə bağlanan yeni müqavilələr də bunu təsdiq edir. Ümumiyyətlə, Türkiyə və Rusiya, eləcə də Çin prosesdə maraqlıdır. Hesab olunur ki, Rusiya və Çin, eləcə də Türkiyə ticarəti milli valyatada aparmaq istiqamətində addım ata bilsə, bu, sonradan bütün regiona təsir edəcək. Hətta prosesə Azərbaycanın da qoşulması gözləniləndir. Qeyd olunanlar fonunda Azərbaycan çox maraqlı situasiyada yer alır, çünki dollara qarşı fəal siyasət yürüdən Rusiya və Türkiyə Bakının strateji tərəfdaşıdır. Digər tərəfdən, həm Rusiya, həm də Türkiyə Azərbaycana da ticarəti milli valyutalarda aparmaq təklifi ilə çıxış edib. Bundan öncə "Bank VTB Azərbaycan"ın İdarə Heyətinin sədri Kirin Yevgeni bu xüsusda maraqlı açıqlamalar verib: "Ölkələrimiz arasında ticarət dövriyyəsi üzrə hesablaşmalarda milli valyutalar daha yüksək paya malik olmalıdır. İlk növbədə iqtisadi səbəbləri nəzərə alsaq, bu daha sərfəlidir. Bu, şirkətlərə hesablaşma və mübadilə əməliyyatları ilə bağlı xərcləri azaltmağa imkan verəcək. Ölkələrimiz arasındakı hazırkı dövriyyə uzun illər ərzində işgüzar ənənələr əsasında formalaşıb. Hesab edirəm ki, milli valyutalara keçidlə bağlı prosesləri sürətləndirmək üçün biz iqtisadi stimullar yaratmalıyıq. Məhz bu, milli valyutalara keçidi tezləşdirəcək. Rusiya Azərbaycanın ticarət tərəfdaşları arasında ilk üçlüyə daxildir. Bundan başqa, ölkələrimiz arasında əvvəlki kimi iqtisadi əlaqələrlə yanaşı, humanitar bağlar da böyükdür. Biz bunu adi məişət nümunələrində, elə təyyarə reyslərinin məlumat intensivliyində də görə bilərik. Gün ərzində Moskvadan Bakıya 10 reys həyata keçirilir, pul köçürmələri çox aktivdir. Bizim məqsədimiz budur ki, elə bir iqtisadi stimul yaradaq, əməliyyatları milli valyutalarla etmək daha sərfəli olsun". Rusiyanın "Sberbank" bankının rəhbəri German Qref də bunu mümkün sayır və qeyd edir ki, Rusiya ilə Azərbaycanın ticarət əməliyyatlarındakı hesablaşmaları daha böyük həcmdə milli valyutalara keçirmək mümkündür: "Məncə, bu çox düzgün addım olardı. Bunun üçün müvafiq infrastruktur yaradılmalıdır". Xatırladaq ki, bundan əvvəl, prezident Vladimir Putin də daxil olmaqla, digər Rusiya rəsmiləri də Azərbaycanla ticarətin milli valyutada aparılmasında maraqlı olduqlarını bildiriblər. Ankara isə bəyan edir ki, Azərbaycanla Türkiyə idxal-ixrac əməliyyatları zamanı hesablaşmalarda milli valyutadan istifadə etdiyi zaman özlərini xarici şoklardan sığortalamış olacaq. Göründüyü kimi, Türkiyə Azərbaycanla ticarətdə milli valyutadan istifadədə maraqlıdır.

Eləcə də cənub qonşumuz Azərbaycanla ticarət əlaqələrində milli valyutalardan istifadə olunmasına getdikcə daha çox maraq göstərməkdədir. Hələlik az həcmdə ticarətin milli valyutada həyata keçirilməsi ölkələr üçün mümkün sayılır. Əslində, Azərbaycanın Türkiyə və Rusiya ilə ticarətində, qismən də olsa, milli valyutalardan istfiadə olunur. Ekspertlərin rəyinə görə, bir valyuta asanlıqla istənilən valyutaya dəyişdirilirsə, həmin valyutadan xarici ticarətdə istifadə etmək olar. Onu da xatırladaq ki, bu gün dünyada mərkəzi banklar arasında öz milli valyutalarının mübadilə təcrübəsi geniş inkişaf edir. Belə vəziyyətdə qarşıdakı dövr ərzində Azərbaycanın xarici ticarətdə milli valyutadan istifadəsinin genişlənməsi tamamilə gözlənilən sayılır.

***Tahir TAĞIYEV***

# Eçmiədzinin 2704 yaşı? - növbəti erməni saxtakarlığı tarixçiləri hiddətləndirdi...

**Ermənistan mətbuatı yeni-yeni yalanlar uydurmaqda, beynəlxalq aləmi bu yalanlara inandırmağa cəhdlər göstərməkdə davam edir. Amma bu da faktdır ki, yalan ayaq tutsa da, yeriməz. Çünki onların yalanlarını darmadağın edən yüzlərlə həqiqət var ki, bunlar da bütün mənalarda erməniləri fakt qarşısında qoyur.**



***Qasım Hacıyev:** "Ermənilər, bütün məsələlərdə olduğu kimi, Üçkilsə (Eçmiədzin) haqqında da uydurmalar yaradırlar"*

Azərbaycan torpaqlarında Çar Rusiyasının və digər iri dövlətlərin dəstəyilə özlərinə dövlət quran haylar (ermənilər) bura köçürüldükdən sonra qədim türk-xristian abidələrinə, məbəd və monastrlara da "sahiblənməyə" başladılar.

Bu gün ermənilərin əsas dini mərkəzinə çevrilən Eçmiədzin (əsl adı isə Üçkilsə, Üç müəzzin) kilsəsinin ermənilərə "məxsus" olması iddiaları elmi kitablarda, yazılarda, erməni mətbuatında yer alır. Erməni mətbuatının yazdığına görə, Eçmiədzin kilsəsinin 2704 yaşı var. Hesablayanda isə bu kilsənin 685-ci ildə yarandığı üzə çıxır. Amma bu kilsənin ermənilərlə heç bir qədim bağlılığı yoxdur. Bunu tarixçilər də, sənədlər də təsdiqləyir.

Tarixçilər qeyd edirlər ki, Üçkilsə (12 mart 1945-ci ildən Eçmiədzin) rayon mərkəzi olan Üçkilsə (qədim Vağarşabad) şəhərində türk xristian məbədidir. Məlumatlara görə, IV əsrin əvvəlində Cənubi Qafqazda xristianlığın yayılmasına daha öncəki məbədlərin dağıdılması ilə başlayan maarifçi Qriqori əvvəlcə ölkənin ən böyük və nüfuzlu ibadətgahı olan Vağarşabaddakı məşhur atəşpərəstlik məbədini daş hasara aldırmış və az sonra (303-cü ildə) burada xristian məbədi ucaltmışdır. V əsrdən başlayaraq bu məbəd dəfələrlə bərpa olunmuş, onun ilkin görkəmi tanınmaz dərəcədə dəyişdirilmiş, ona yeni-yeni tikililər əlavə edilmiş, xüsusilə XVII əsrdə böyük dəyişikliklərə məruz qalmışdır. Kilsənin "Eçmiədzin" adı erməni dilində "yenidən doğulmuş yerə endi" kimi şərh edilir (əfsanəyə görə, İsa Məsih göydən enərək Müqəddəs Qriqoriyə burada görünmüşdü). Azərbaycan dilində "Eçmiədzin" sözü "Üç müəzzin" deməkdir ("müəzzin" ərəbcə "azan oxuyan" deməkdir).

Matenadaranda saxlanan orta əsr sənədlərində məbədin adı məhz "Üçkilsə" kimi xatırlanır. Erməni Katalikosluğunun Üçkilsəyə köçürülməsi ilə erməni missionerləri buraya üz tutdular. Onların Cənubi Qafqazda nüfuzlarını artırmaq imkanı yaranmışdı. Tezliklə monastrın özü ermənilərin dini mərkəzinə çevrilmişdir. Azərbaycan torpaqlarının XIX əsrin birinci yarısında Rusiyaya birləşdirilməsinədək Cənubi Qafqazda Üçkilsənin hüdudlarından kənarda çox cüzi erməni var idi... Türkmənçay müqaviləsi bağlanana qədər nəinki Qarabağ xanlığında, eləcə də Cənubi Qafqazda həqiqətən də ermənilərin sayı daha az idi. Göstərilən müqavilədən sonra Çar Rusiyasının himayəsi və yardımı ilə Azərbaycan ərazilərinə İrandan 40 mindən artıq və Türkiyədən 90 min nəfər erməni köçürülüb. Bu, Çar Rusiyasının işğalçılıq siyasətinin acı nəticəsi idi. Bu siyasət marksist-leninçi ideologiyanın hökm sürdüyü sovet dövləti zamanında da davam etdirilmişdi. Bu fikirləri də tarixçilər söyləyirlər.

*"Tarixdən məlumdur ki, Üçkilsə məbədi orta əsrlərdə Azərbaycan hökmdarları tərəfindən dini ibadət üçün ermənilərə icarəyə verilib"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq bölməsinin rəhbəri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Üçkilsə türk-xristian məbədinin tarixi həqiqətən qədimdir. O qeyd etdi ki, bu kilsənin ermənilərlə heç bir tarixi əlaqəsi yoxdur. Alimin sözlərinə görə, vaxtilə xristian türklərin ibadət məkanı olan Üçkilsə XV əsrdə bu ərazidə yaşayan azsaylı ermənilərə icarəyə verilib, bundan sui-istifadə edən azsaylı haylar isə kilsənin adını dəyişdirərək onu Eçmiədzin adlandırıblar. Orta əsrlərdə dünyanın bir çox ölkəsinə, o cümlədən də Qafqaza çoxlu sayda xristian dinini yayan missionerlərin gəldiyini deyən Q.Hacıyevin bildirdiyinə görə, bu missionerlərin məqsədi Qafqazı tamamilə xristianlaşdırmaq olub. "Üçkilsənin tarixinin ermənilərlə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Tarixdən məlumdur ki, Üçkilsə məbədi orta əsrlərdə Azərbaycan hökmdarları tərəfindən dini ibadət üçün ermənilərə icarəyə verilib. Bu, Səfəvilərdən əvvəl baş verib. Bu da təxminən XV əsrə düşür. Ermənilər bu torpaqlara köçürüldükdən sonra isə buranı özlərinə həm dini, həm də elmi mərkəzə çevirdilər. Saxtakarlıq yolları ilə əldə etdikləri sənədləri, kitabələri topladılar və orada arxiv yaratdılar. Amma, nə olursa-olsun, əvvəlki dövrlərdə Üçkilsə ərazisində, onun yaxınlığında erməni olmayıb. Və onlar ora orta əsrlərdə gəlib dini məqsədlərlə birləşiblər.

Orada ermənilərin nə dövləti, nə də dövlətçilik atributları olub, bütün bunları XIX əsrdən quraşdırmağa başlayıblar. Əllərində heç bir tarixi fakt olmadan bunları ediblər. Bilirsiniz ki, İrəvan qalasını Erabuni kimi qələmə verib onunla bağlı saxta sənədlər düzəldərək tarixini qədimləşdirməyə cəhd göstərdilər. Ermənilər, bütün məsələlərdə olduğu kimi, Üçkilsə (Eçmiədzin ) haqqında da uydurmalar yaradırlar. Halbuki, son dövrlərdə qədər o ərazilərdə ermənilər kütləvi yaşamayıblar və onların orada dini mərkəzləri olmayıb. Yaxşı bilirsiniz ki, xristianlıq yarandığı dövrdə ayrı-ayrı missionerlər dünyanın hər yerində xristianlığı yayırdılar. Xristianlıq dövründə Üçkilsə məbədi xristian türklərin ibadət yeri olub və sonra islam dini oturuşduqdan sonra o məbədlər qalıb" - deyə Q.Hacıyev qeyd etdi.

*İradə SARIYEVA*

# Tramp Şimali Suriyada 7 min İŞİD terrorçusunu Türkiyəyə "əmanət bomba" kimi qoyub gedir...



**ABŞ prezidenti Donald Tramp Türkiyənin gözlənilən Fərat əməliyyatı ərəfəsində yeni açıqlama yayıb. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Tramp "Twitter Moments" adlı hesabında Türkiyənin Suriyanın şərqində əsir saxlanan İŞİD döyüşçülərinə cavabdeh olacağını bir daha təkrarlayıb.**

Tramp "Ağ Ev Türkiyənin uzun müddətdir planlaşdırılan əməliyyatla Şimali Suriyaya doğru irəliləyəcəyini və bölgədə saxlanan bütün İŞİD döyüşçülərinə cavabdeh olacağını açıqladı" paylaşımını xatırladaraq bildirib: "Müxtəlif qruplar arasında döyüş yüz illərdir davam edir. ABŞ heç bir zaman Yaxın Şərqdə olmamalı idi. 50 əsgərimizi bölgədən çıxardıq. Türkiyə Avropanın geri almağı rədd etdiyi və ələ keçirilən İŞİD döyüşçülərini nəzarətinə götürmək məcburiyyətindədir. Bu bitməyən axmaq döyüşlər bizim üçün bitir".

Bu arada, Trampın məsuliyyətini Türkiyənin üzərinə qoyduğu İŞİD terrorçularının saxlandığı həbsxanaları ziyarət edən ingilis jurnalist həbsxanaları "partlamağa hazır bomba"ya bənzədib.

İngiltərə və Almaniya kimi ölkələrin terrorçu vətəndaşlarını geri almaqdan imtina etməsinin ardından "The Times" jurnalistlərindən biri Entoni Loyd bölgədəki İŞİD düşərgələrini ziyarət edib.

Düşərgələrə nəzarəti əlində saxlayan kürd YPG silahlılarının müşayiəti ilə düşərgələri gəzən ingilis jurnalist burada ən azı 5 min İŞİD-çinin olduğunu söyləyib. Jurnalist saxlanılanlar arasında Fransa, İngiltərə, Belçika və ABŞ vətəndaşlarının da olduğunu deyib.

Bölgədəki digər 6 həbsxanada da cəmi 7 min terrorçunun saxlandığını bildirən Loyd bu həbsxanaları partlamağa hazır bombaya bənzədib.

Azərbaycan Ümumdünya İqtisadi Forumunun 2019-cu il üzrə qlobal rəqabətədavamlılıq reytinqində 141 ölkə arasında 11 pillə irəliləyərək 58-ci yerdə qərarlaşıb. Azərbaycan hazırda 62,7 bala sahibdir. İlk sıralara Sinqapur, ABŞ, Honkonq, Niderland və İsveçrə çıxıb. Ermənistan 61,3 balla 69-cu, Gürcüstan 60,6 balla 70-ci yerdədir.

# Azərbaycan 141 ölkənin 58-cisi oldu - qlobal rəqabət indeksində sürətli irəliləyişin sosial-iqtisadi əsasları...

## Fikrət Yusifov: "Bu baş verdikdə, heç şübhəsiz, biz bu cür reytinq cədvəllərində birinci onluqdan aşağı yerə layiq görülməyəcəyik"



Ermənistan 11 pillə Azərbaycandan geridədir.

Ümumilikdə, reytinqdə 12 mövqe əks olunub. "İnstitutlar" mövqeyində Azərbaycan 49, "İnfrastruktur" mövqeyində 38, "Məhsul bazarı"nda 23, "Əmək bazarı"nda 21, "Biznesin dinamikliyi" mövqeyində isə 23-cü yeri tutub.

Görünən odur ki, islahatlar dərinləşir, reytinq yüksəlir və ölkənin nüfuzu artır. Aparılan islahatlar mütəmadi olaraq əksər indikatorlar üzrə mövqeyin daha üst səviyyəyə qalxmasına imkan verib. Ümumiyyətlə, beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda Azərbaycan iqtisadiyyatının real vəziyyəti haqqında müsbət hesabatların təqdim edilməsi təsadüfi deyil. 2015-ci ildən etibarən daha da dərinləşdirilən islahatlar bu sahədə Azərbaycanın reytinqini daha da artırır. Davamlı islahatlar aparıldıqca, ölkəmizin beynəlxalq hesabatlarda mövqeyinin daha da yaxşılaşmasını müşahidə edirik. Bu baxımdan qlobal rəqabətədavamlılıq reytinqində Azərbaycanın 11 pillə irəliləməsinin sosial-iqtisadi əsaslarını ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələyə aydınlıq gətirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, qeydə alınan irəliləmə bir sıra faktorlarla bağlıdır: "Beynəlxalq reytinq cədvəllərində Azərbaycanın daha münasib yerlərdə sıralanması ölkədə islahatların yeni dalğasının başlanmasına start verilməsi ilə bağlıdır. Bu islahatlarla son bir neçə il ərzində bir çox sahədə irəliləyişlər əldə edilib. Belə pozitiv nəticələrin iqtisadiyyatımızın bütün sahələrində əldə olunması isə aparmaq istədiyimiz islahatların başlıca hədəfidir. Bu sırada ən mühüm yer ölkə iqtisadiyyatının qeyri-neft sektorunun indikindən 3-4 dəfə üstün templə inkişafını təmin etməkdir. Bu baş verdikdə, heç şübhəsiz, biz bu cür reytinq cədvəllərində birinci onluqdan aşağı yerə layiq görülməyəcəyik. Hökumətin rəhbərliyinə yenicə təyinat almış peşəkar iqtisadçı Əli Əsədovun bu məsələdə ciddi dönüş yarada biləcəyinə inanıram. Bütövlükdə, 2015-ci ilin sonlarından ölkədə post-neft dövrünün başladığı elan edildikdən sonra sürətlənən iqtisadi islahatlar iqtisadiyyatın real sektorunun dinamik inkişafını təmin etməyi hədəfləyib. Məsələn, Dünya Bankı dünyanın ən nüfuzlu maliyyə institutudur. Onun hesabatını heç bir təşkilatın hesabatı ilə müqayisə etmək mümkün deyil. Bir müddət əvvəl sözügedən bank Azərbaycanı hesabatında ən çox islahat aparmış bir ölkə kimi qeyd edib. Bütün bunlar onu göstərir ki, Azərbaycan öz iqtisadi strategiyasını düzgün müəyyən edib və onu tam doğru bir yolla irəliyə aparır".

*"Beynəlxalq reytinq cədvəllərində Azərbaycanın daha münasib yerlərdə sıralanması ölkədə islahatların yeni dalğasının başlanmasına start verilməsi ilə bağlıdır"*

**Vidadi ORDAHALLI**

"Bu gözəl yaşayış yerini özəl sektor inşa edib. Bu da bir yenilikdir. Çünki bu günə qədər 100-dən çox şəhərciyi Dövlət Neft Fondunun xətti ilə tikmişik. Mən çağırış etmişdim ki, Azərbaycanda böyük şirkətlər sosial məsuliyyət daşımalıdırlar. Demişdim ki, imkanlı sahibkarlar ağır vəziyyətdə yaşayanlara əl uzatmalıdırlar və şadam ki, mənim çağırışıma özəl qurumlar müsbət reaksiya verib".

# Ölkənin ən varlı banklarından olan "Unibank" Prezidentin "sosial məsuliyyətlilik" çağırışına qoşulacaqmı...

## "Unibank": "Bankın KSM layihələri sosial və inkişafa dəstək xarakterli olaraq, idman, mədəniyyət, səhiyyə, ekologiya və digər sahələri əhatə edir"

## Rəsul Cahangirli: "Təəssüflər olsun ki, banklar bunda maraqlı deyillər"




Bu fikirləri Prezident İlham Əliyev Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında səsləndirib.

Ölkə başçısı "Qobu-1", "Qobu-2" və tikilməkdə olan "Qobu-3" yaşayış komplekslərinin 100 faiz özəl sektorun hesabına salındığını qeyd edib: "Mən bu fürsətdən istifadə edərək, bütün Azərbaycan şirkətlərinə - kimin böyük imkanı var, kimin o qədər də böyük imkanı yoxdur, - deyirəm ki, həmrəylik göstərməlidirlər, sosial məsuliyyət daşımalıdırlar".

Özəl sektora dövlətin böyük kömək göstərdiyini, kreditlər verdiyini, şərait yaratdığını, infrastruktur layihələrini icra etdiyini vurğulayan Prezident İlham Əliyev sahibkarları məcburi köçkünlərin mənzillə təmin olunması işinə daha fəal qoşulmağa çağırıb. Bununla belə, ölkənin birinci xanımı Mehriban Əliyevanın da sözügedən məsələ ilə bağlı özəl sektora çağırışı olub. Məlum çağırışlar təkcə tikinti şirkətlərinə aid deyil.

O da məlumdur ki, ölkədə çoxsaylı kommersiya bankı, özəl klinikalar, özəl universitetlər və digər bu kimi təsisatlar fəaliyyət göstərir. Ancaq çox təəssüf ki, onların heç biri korporativ sosial məsuliyyət prinsipindən çıxış edərək bu kimi fəaliyyətlərlə məşğul olmurlar. Hansı ki, dövlət onlara hərtərəfli şərait yaradıb. Dövlətin yaratdığı imkanlardan istifadə edərək yaxşı qazanc əldə edirlər. Ancaq bütün bunlara baxmayaraq, Prezidentin bu yöndə çağırışına əməl etmirlər. Korporativ sosial məsuliyyət prinsipindən çıxış edərək bu işə töhfə vermirlər. Bunların sırasında kommersiya bankları da var.

Bu gün Azərbaycanda ən varlı banklardan biri də "Unibank"dır. Azərbaycanda 30 bankdan 13-nün nizamnamə kapitalı 100 milyon manatdan çoxdur. Sözügedən 13 bankdan biri də "Unibank"dır. Hansı ki, bu bankın nizamnamə kapitalının həcmi 125 milyon manatdan çoxdur. Ölkədə "Unibank"ın çoxsaylı filialı fəaliyyət göstərir. Ancaq indiyə qədər müşahidə edilməyib ki, adıçəkilən bank məcburi köçkünlər üçün tikilən mənzil layihələrinə dəstək versin. Əslində, baxanda banklar bu yöndə mənzil-tikinti kooperativləri ilə müqavilə bağlayıb, bu məqsədlə müəyyən hesaba vəsait köçürə bilər. Ancaq görünən odur ki, geniş imkanlara rəğmən, adıçəkilən bank bunda maraqlı deyil. Nəyə görə Prezidentin məlum çağırışına bankın qoşulmadığı ilə bağlı "Unibank"a sorğu göndərdik. Bankın buna cavabı ümumi xarakterli oldu: "Unibank" Kommersiya Bankı 27 illik fəaliyyəti dövründə həyata keçirdiyi çoxsaylı korporativ sosial məsuliyyət layihəsi ilə ölkə bank sektorunda hər zaman öncüllərdən olub. "Unibank"ın KSM layihələri sosial və inkişafa dəstək xarakterli olaraq, idman, mədəniyyət, səhiyyə, ekologiya və digər sahələri əhatə edir. 2018-ci ildə "Unibank" Azərbaycan bank sektorunda ən böyük KSM layihələrdən birinə imza atıb. Ötən ilin mart ayından etibarən "Unibank" güllə atıcılığı üzrə milli paralimpiya komandasının rəsmi dəstəkçisidir. 2020-ci ilin yayınadək bank komandanın yerli və xarici yarışlarda iştirakını maliyyələşdirəcək".

Ekspert Rəsul Cahangirli isə bildirdi ki, Azərbaycanda fəaliyyət göstərən bir sıra bankların geniş imkanlarının olmasına rəğmən, bu kimi sosial layihələrə dəstək verməkdə maraqlı deyillər: "Halbuki, belə bir dəstək olsa, o zaman məcburi köçkünlərin mənzil təminatı ilə bağlı işlər daha tez həll olunacaq. Bütün yük dövlətin üzərinə düşməz. İndiyə qədər banklar bu işə qoşulsaydı, bəlkə də bütün məcburi köçkünləri mənzillə təmin etmək məsələsi bitmişdi. Təəssüflər olsun ki, banklar bunda maraqlı deyillər".

**Vidadi ORDAHALLI**

# Azərbaycan "ASAN" brendinin Mərkəzi Asiya dövlətlərinə transformasiyası başladı...

**Azərbaycan cəmiyyətində fəaliyyətilə özünü artıq çoxdan doğruldan "ASAN xidmət" modeli artıq qonşu respublikaların, eləcə də uzaq ölkələrin diqqətini cəlb edir. Sosial xidmət sahəsində bənzəri olmayan bu modelin başqa ölkələrdə də tətbiq edilməsi reallaşmaqdadır.**




*Əli Əlirzayev: "Tacikistan, Özbəkistan və digər ölkələr "ASAN xidmət" modelinin öz ölkələrinə ixrac edilməsinə nail olmaqla sosial xidmət sahəsində yeni bir istiqamət açmış olurlar"*

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin bildirdiyinə görə, artıq bu modelin ixracı ilə bağlı başqa dövlətlərdən bizə müraciətlər edilir: "Tacikistan və Qırğızıstan "ASAN xidmət" modelinin ixracı ilə bağlı Azərbaycana müraciət ediblər".

O bildirib ki, hazırda "ASAN xidmət" modelinin tətbiqi ilə bağlı müraciət edən bəzi ölkələrlə danışıqlar aparılır: "Bu yaxınlarda Özbəkistanla da saziş imzalamışıq. Bu, bizim beynəlxalq tərəfdaşlarımızla bağladığımız 12-ci müqavilədir. Bu ölkələrdən onunda "ASAN xidmət" modelinin ixracı ilə bağlı işlərə başlamışıq. İxrac istiqamətində işlərimiz bundan sonra da davam edəcək. Təkcə "ASAN xidmət" modeli ilə bağlı yox, ümumiyyətlə, Azərbaycanın elektron hökumət, İT həlləri proqramları artıq dünyaya ixrac olunur" - deyə Ü.Mehdiyev vurğulayıb.

"ASAN xidmət" modelinin başqa ölkələrə ixrac edilməsinin əhəmiyyətindən danışan tanınmış iqtisadçı-ekspert, professor Əli Əlirzayev "Bakı-Xəbər"ə bildirdi ki, bu modelə dünya dövlətləri arasında marağın artması təbiidir. İlk dəfə Azərbaycanda yaradılan və tətbiq edilən, özünü praktikada tam olaraq doğruldan "ASAN xidmət" modelinin bütün dünya üçün əhəmiyyət kəsb etdiyini deyən Ə.Əlirzayevin sözlərinə görə, keçmiş Sovet İttifaqına daxil olan respublikaların bu modelə maraq göstərməsi çox əhəmiyyətlidir. "Azərbaycanda tətbiq edilən "ASAN xidmət" mexanizmi çox yaxşı mexanizmdir və faydasını da hər kəs görür. Bu həm praktiki cəhətdən, həm də insanların asanlıqla öz problemlərini həll etmək baxımından çox əhəmiyyətlidir. Bu sahədə xidmətə ehtiyacı olan adamların bu təsisata maraq göstərməsi onu deməyə əsas verir ki, bu model tam olaraq özünü doğruldub. Bu modelin tətbiqi bir sıra cəhətdən əhəmiyyətli oldu, o cümlədən də sosial xidmət sahəsində korrupsiyanın, rüşvətxorluğun qarşısının alınmasında, şəffaflığın təmin edilməsində onun rolu danılmazdır. Bir çox insan ayrı-ayrı idarələrə gedib vaxt itirirdi, indi isə vahid mərkəzə müraciət etməklə işlərini həll edir. Bu vahid mərkəzin idarə olunması şəraitində insanların bir-birinə yalan satmağı, rüşvət almağı mümkün deyil. Ona görə də hesab edirəm ki, Azərbaycan şəraitində belə bir modelin tətbiqi çox doğru addımdır. Ora müraciət edən insanların danışığından eşidirik ki, orada vaxtımız itmir, artıq xərcimiz çıxmır, dövlət rüsumu nədir, o pul ödənir. Düşünürəm ki, bu modelin tətbiqinə başqa ölkələrin maraq göstərməsi təsadüfi deyil. Xarici ölkələr də bu modeli Azərbaycanda özünü doğrultduğunu görüb, özləri də bunu tətbiq etmək istəyirlər. Xüsusən də sovet rejimindən çıxan ölkələr bu modelə maraq göstərirlər. Bu ölkələrin hamısının idarəetmə sistemi Azərbaycanla eyni olub. Tacikistan, Özbəkistan və digər ölkələr "ASAN xidmət" modelinin öz ölkələrinə ixrac edilməsinə nail olmaqla sosial xidmət sahəsində yeni bir istiqamət açmış olurlar. Onlar da bu sahədə inkişafa nail olmaq istəyirlər" - deyə Ə.Əlirzayev qeyd etdi.

*"Xüsusən də sovet rejimindən çıxan ölkələr bu modelə maraq göstərirlər"*

**O hesab edir ki, "ASAN xidmət" modelinin digər xarici ölkələrdə də tətbiqi qaçılmazdır. Onun sözlərinə görə, bu model asan xidmət üsulu kimi diqqəti çəkir.**

*İradə SARIYEVA*

# "Tender" qanunvericiliyinin icrasında cinayət xarakterli pozuntu iddiaları - bir neçə aylıq şirkətlər qalib ola bilir...

**Bu gün dövlət və özəl şirkətlər sərbəst şəkildə tenderlərdə iştirak edirlər. "Tender haqqında" Qanunda qeyd olunur ki, azı 3 illik təcrübəsi olmayan şirkətlər tenderdə iştirak edə bilməz. Ancaq son zamanlar tenderlərdə 3 illik təcrübəsi olan şirkət deyil, 5-6 ay fəaliyyət göstərən şirkətlər qalib olurlar.**




*Rəşad Həsənov: "Hər hansı bir müəssisənin 3 ildən az təcrübəsi olduğu halda, dövlət layihələrində iştirakı ilə bağlı məhdudiyyət var, amma..."*

Qeyd edək ki, tenderdə iştirak üçün ilk növbədə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçmək üçün qanunvericilikdə minimum ödəniş məbləği 10 manatdır.

Ekspertlər bildirirlər ki, tenderdə iştirak üçün şirkətin ən az 3 illik təcrübəsinin olması o üzdən tələb olunur ki, gələcəkdə işin keyfiyyəti ilə bağlı problem yaşanmasın. Maraqlıdır, "Tender haqqında" Qanunda iş təcrübəsinin dəqiqliyini sübut edən müddət qoyulduğu təqdirdə, yeni yaranmış şirkətlər tenderdə necə iştirak edirlər?

İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, buna bənzər məqamlar xüsusən dövlət satınalmalarında kifayət qədər rast gəlinən hallardan biridir: "Adətən belə hadisələr necə baş verir? Hər hansı seqmentə rəhbərlik edən bir məmur bu sahədə növbəti mərhələnin elan olunacağı vaxtı, büdcəni bilir və kiminsə adına özü bir şirkət yaradır, qərarverici olduğu, seçmələrdə özü iştirak etdiyi üçün tamamilə qanunsuz şəraitdə bu şirkəti qalib edir. Proses təxminən belə baş verir. Yaxın-tanış şirkətlərə, tanış adamlara da bənzər tövsiyələr verilir. Sonra burada hansısa formada büdcənin paylaşılması, müəyyən korrupsiya elementləri də öz əksini tapır. Əslində, dövlət satınalmalarında bu günə qədər şərtlərə əməl edilmir və Hesablama Palatasının hesabatlarında da bu məqamlar öz əksini tapır. Düzdür, bir qədər yumşaq formada göstərilir, amma hər ilin hesabatlarında bu kimi faktlar göstərilir.

Ümumiyyətlə, hər hansı bir müəssisənin 3 ildən az təcrübəsi olduğu halda, dövlət layihələrində iştirakı ilə bağlı məhdudiyyət var. Amma 2016-cı ildən sonra bu istiqamətdə müəyyən qədər nisbi yumşalma oldu. Düzdür, ondan əvvəl də tələbə əməl edilmirdi. Ancaq kiçik və orta sahibkarlığın inkişafı məqsədilə dövlət-özəl sektor münasibətlərinin nisbətən liberallaşması, təkmilləşdirilməsi üçün ələ və bir imkan yarandı. Burada da 50 min manata qədər olan kiçik layihələrdir. O layihələrdə nisbətən tələblər yumşaldılıb. Bu, məmur, idarəedici təşəbbüslərinin bu istiqamətdə hardasa leqallaşmasına gətirib çıxarır. Azərbaycanda dövlət qurumları çox az hallarda satınalmalar zamanı şəffaflığı təmin edirlər.

*"Azərbaycanda dövlət qurumları çox az hallarda satınalmalar zamanı şəffaflığı təmin edirlər"*

Dəfələrlə bununla bağlı böyük iradlar səslənib. Rəqəmlərin şişirdilməsi, qalib edilən layihə, şirkət hansı üstün məqamlara görə qalib elan edilib, müraciət edənlər hansı şərtləri təklif ediblər və sair məqamlar ictimailəşmir. Buna görə də, əksər hallarda, baş verən nöqsanları tam olaraq qiymətləndirmək imkanı çətin olur".

*Günel CƏLİLOVA*

# Təhsil Nazirliyi dərsliklərin elektronlaşdırılması yolunda yeni addımlar atır

## Nadir İsrafilov: "Ölkəmiz "Elektron hökumət" quruculuğunda böyük nailiyyətlər əldə edib"

**Son illər tədris prosesində, xüsusən də dərslik sahəsində bir sıra yeniliklər baş verib. Bu yeniliklər, heç şübhəsiz ki, dərsliklərin məzmun və keyfiyyətinə, formatına müsbət mənada təsir edib. Bir neçə ildir Təhsil Nazirliyi tərəfindən hazırlanan elektron dərsliklər bu sahədə atılan uğurlu addımlardandır.**

Şagirdlər biliklərinin artırılması üçün planşetlərdən istifadə edərək, mövzuları daha asan və daha yaddaqalan səviyyədə mənimsəyirlər. Dərslərin internetin köməkliyilə keçirilməsinin də bir sıra üstün cəhətləri var. Misal üçün, mövzuya dair verilən tapşırıqların yerinə yetirilməsində, əlavə maraqlı məlumatların alınmasında, onlayn testlərin yerinə yetirilməsində, onlayn şagird nəzarəti və şagird nailiyyətlərinin qiymətləndirilməsində internetin rolu əvəzsizdir.

Uzun müddət idi ki, elektron dərsliklərin hazırlanması məsələsi müzakirə olunurdu. Həm orta, həm də ali təhsil müəssisələrində təhsil alan tələbələrin rahatlığı üçün dərsliklərin elektron formada tərtib olunması ekspertlər tərəfindən təklif olunurdu. Artıq Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərslik portalında (www.e-derslik.edu.az) Azərbaycan və rus bölmələri üzrə mövcud olan 2-ci sinif dərsliklərinin hamısı və hər iki bölmə üzrə 3-cü sinif dərsliklərindən 7-si olmaqla, ümumilikdə, 22 dərslik yeniləri ilə əvəzlənib. Hazırda məzmun və dizayn baxımından təkmilləşdirilmiş dərsliklərin elektron formatda hazırlanıb portalda yerləşdirilməsi prosesi davam etdirilir. Portalda 231 elektron dərslik, 22 metodik vəsait və 2 sinifdənxaric oxu materialı olmaqla, ümumilikdə, 255 elektron vəsait mövcuddur. Portalda video, qrafika, səs və digər multimedia vasitələri ilə zənginləşdirilmiş dərsliklərin sayı 27-yə çatdırılıb.

Nazirliyin yaydığı məlumatda qeyd olunur ki, elektron dərslik portalı ölkə üzrə saytların reytinq cədvəlində son bir ay ərzində 80 pillə yüksələrək 51-ci olub. Belə ki, sentyabr ayı ərzində portala giriş sayı 332 130-a, səhifələrə ümumi baxış sayı isə 2 748 408-ə çatıb.

Məlumdur ki, bu gün dərsliklərin satış qiyməti yüksəkdir. Elektron dərsliklər yaradılarsa, bu, ilk növbədə, valideynlərin büdcəsinə müsbət təsir edəcək, həm də dərsə gedən şagirdlərin məktəb çantasının yüngülləşməsinə səbəb olacaq.

Təhsil eksperti Nadir İsrafilov "Baki-Xəbər"ə açıqlamasında qeyd etdi ki, elektron dərsliklərin yaradılması müsbət haldır: "Məlumat üçün bildirim ki, 2012-ci ildən başlayaraq qardaş Türkiyənin ümumtəhsil məktəblərində çox böyük strateji əhəmiyyət daşıyan "FATİH Projesi" adlı proqram həyata keçirilir. Proqrama uyğun olaraq, ölkənin bütün şagirdlərinə dövlət hesabına fərdi tablet, planşetlər verilir. Çəkisi 800 qram civarında olan bu bilgisayarlar təlim prosesində istifadə olunur, müxtəlif tədris vəsaitləri və məlumat qaynaqları yüklənir. Bununla da şagirdlərin canı kağız dərsliklərdən, dövlətin canı isə hər il sərf olunan milyardlarla dollar xərcdən qurtulur və qurtulacaq.

Qeyd edim ki, "FATİH Projesi" elan edilləndə Türkiyədə bir çoxu buna inanmadı. Amma pilot məktəblərdə keçirilən eksperimentlər Türkiyə təhsilinin böyük bir sıçrayışa hazır olduğunu nümayiş etdirdi.

Əlbəttə, başladılan bu proqrama kağız istehsalına görə milyonlarla ağacın qırılması, ətraf mühitin tullantılarla zibillənməsi, uşaqların sağlamlığı və hər il sərf olunan milyardlarla vəsait israfçılığının qarşısını almaq prizmasından da baxmaq olar. Lakin sagirdlər öz fərdi tablet kompyuterlərindən dərslik və dərs vəsaitləri kimi istifadə etməklə yanaşı, həm də bir-biri və müəllimləri ilə daim interaktiv əlaqədə olur, keçilən mövzuları daha yaxşı mənimsəmək üçün ölkədə və dünyada mövcud olan ən yaxşı canlı dərs nümunələrindən bəhrələnə bilirlər. Bunun nə demək olduğunu anlamaq elə də çətin deyil.

Xatırladım ki, ölkə başçısının fərmanı ilə 29 dekabr 2012-ci il tarixində "Azərbaycan 2020: Gələcəyə baxış" adlı proqram qəbul olunub. Proqram hər sinfin bir noutbuk, proyektor və elektron lövhə dəsti ilə, hər şagirdin isə bir pulsuz netbuk və ya planşetlə təmin edilməsini nəzərdə tutur. Əlbəttə, bu çox yaxşı haldır. Bunun üçün hər şeydən əvvəl mükəmməl proqram təminatı hazırlanmalı, sistemli iş aparılmalıdır. Burada diqqətçəkən əsas məsələ öncə təhsildə tətbiq olunacaq çağdaş texnologiyaların gənc nəslin beynində, dünyagörüşündə yaradacağı inqilabdır. Elektron dərsliklərə keçid kağız dərsliklər ətrafında gedən ardı-arası kəsilməyən mübahisələrə son qoymaqla yanaşı, həm də məktəbliləri ağır çanta yükündən xilas edər".



"Elektron dərsliklərə keçid kağız dərsliklər ətrafında gedən ardı-arası kəsilməyən mübahisələrə son qoymaqla yanaşı..."

N.İsrafilov hesab edir ki, ölkəmiz "Elektron hökumət" quruculuğunda böyük nailiyyətlər əldə edib. Təhsil Nazirliyi tərəfindən elektron dərslik portalı hazırlanıb, bir çox təhsil müəssisəsində elektron kitabxanalar fəaliyyət göstərir. Hazırda portalda 217 elektron dərslik, 22 metodik vəsait və 2 sinifdənxaric oxu materialı olmaqla, ümumilikdə, 241 elektron vəsait mövcuddur. Portalda video, qrafika, səs və digər multimedia vasitələri ilə zənginləşdirilmiş dərsliklərin sayı 26-ya çatdırılıb. Yenilənmə davam edir: "2014-cü ildən fəaliyyət göstərən www.e-derslik.edu.az portalının hazırlanmasında məqsəd təhsilalanları təhsil prosesində fəallaşdırmaq, onların İKT-dən səmərəli istifadə etməsinə, dərslikləri elektron formatda oxumasına imkan yaratmaqdır.

Bu sistem şagirdlərin dərsliklərdən istifadəsində mobilliyi artırır, həmçinin, məktəblilər istənilən vaxt və məkanda dərsliklərə müraciət edə bilirlər. İstifadəçilər onlayn formada və ya əvvəlcədən yükləməklə dərslikləri elektron versiyada oxumaq, onlayn rejimdə dərsliyin istənilən səhifəsində müvafiq lazımi elektron qeydlər aparmaq imkanı qazanırlar. Bu da, öz növbəsində, təhsilalanların öyrənmə prosesinin fərdiləşməsinə şərait yaradır. Elektron dərslik portalında 22 dərslik yenilənib. Bu sahədə aparılan işlər təqdirəlayiqdir və mərhələlər üzrə davam etdiriləcək".

**Günel CƏLİLOVA**

№ 181 (4079) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

10 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Planetlәrin yaranması haqda bütün nәzәriyyәlәri alt-üst edәn kәşf...




**Elm adamları nәzәriyyәlәrә görә, mümkün olmayan nәhәnglikdә yeni planet kәşf edib. "Teleqraf.com" bildirir ki, Yupiterә oxşayan planet orbitindә fırlandığı Günәşlә müqayisәdә qeyri-adi böyüklükdәdir.**

Belә planetlәrin mövcudluğu indiyәdәk qәbul edilmiş bütün nәzәriyyәlәri alt-üst edir. Yeni kәşf olunan planet әtrafında fırlandığı qırmızı rәngli ulduzdan (Günәş) o qәdәr dә böyük deyil. Bu göy cismi Yer kürәsindәn 284 trilyon mәsafәdә yerlәşir. Araşdırma haqda danışan İngiltәrәnin Varvik Universitetinin professoru Peter Uitli deyib: "Bu, çox hәyәcanvericidir. Çünki, uzun müddәtdir kiçik ulduzların әtrafında Yupiter vә Saturn kimi nәhәng planetlәrin әmәlә gәlib-gәlmәmәsi ilә maraqlanırdıq. İndiyәdәk belә bir şeyin mümkün olmadığına inanırdıq. Çünki, kiçik ulduzlar bizim günәşimiz kimi olanlardan sayca çox olmaqla yanaşı, onları araşdırmaq da çox çәtin idi". "Qırmızı ulduz"un hәcmi әtrafında fırlanan "GJ 3512b" adlanan planetdәn böyükdür. Lakin aralarındakı hәcm fәrqi, mәsәlәn, Günәş vә Yupiter arasındakı fәrqdәn daha azdır. Ətrafında fırlandığı ulduz planetdәn 270 dәfә böyükdür. Mәsәlәn, Günәş Yupiterdәn 1.050 dәfә daha böyükdür. Professor Mordazini qeyd edir ki, "GJ 3512b"-nin hәcmi Yupiterin yarısı qәdәrdir.

Yәni, yeni planet bu qәdәr kiçik bir ulduzun әtrafında yerlәşә bilirsә, bu, nәzәri olaraq qәbul edilәn planet modelindәn daha böyükdür. Bu kәşf elm adamlarının planetlәrin yaranması haqda qәbul etdiyi bütün nәzәriyyәlәrә meydan oxuyur.




## "Nar"ın "Full" paketlәri ilә qalıq bonusları növbәti ayda istifadә et!

**Mәhsul vә xidmәtlәrini hәr zaman müştәrilәrinin tәlәblәrinә uyğun şәkildә formalaşdıran "Nar" abunәçilәrinә әn sәrfәli tәkliflәrdәn olan "Full" paketlәrini tәqdim etmәkdәdir.**

"Full" paketlәrini seçәn "Nar" abunәçilәri internet vә dәqiqә bonuslarını sәrfәli qiymәtә әldә etmәklә yanaşı, ay әrzindә istifadә etmәdiklәri bonusları növbәti aya keçirә bilirlәr. Azәrbaycan mobil rabitә bazarında yalnız "Nar" abunәçilәrinin yararlana bildiyi "Çevir" xidmәti isә "Full" istifadәçilәrinә ehtiyaclarına uyğun şәkildә dәqiqәlәri meqabaytlara vә ya әksinә, meqabaytları dәqiqәlәrә dәyişmәk imkanı verir.

Özündә bol danışıq, meqabayt vә digәr bonusları birlәşdirәn 6 müxtәlif "Full" paketlәri abunәçilәrin dә marağına sәbәb olub. Belә ki, tarifә qoşulanların sayı son bir ildә iki dәfә artıb.

Sәrfәli imkanlar tәqdim edәn "Full" paketlәrinә qoşulmaq vә daha әtraflı mәlumat әldә etmәk üçün http://www.nar.az/full sәhifәsinә daxil ola bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,6%-ni әhatә edir vә 8000-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir. 2017-ci ildә keçirilmiş mobil rabitә şәbәkәlәrinin müqayisәli testlәrinә әsasәn, "Nar" şәbәkәsi mobil zәng xidmәtlәrinin göstәrilmәsi üzrә ölkәdә әn yüksәk nәticәyә nail olub.

## Elan

Binәqәdi rayonu Rәsulzadә qәsәbәsi, menzil 17-dә yaşayan Əliyeva Xanım Mәhәmmed qızına aid olan әmlaka dair çıxarış itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Kiçik Dәhnә kәnd sakini Mikayılova Tәrgül Mәhәmmәd qızının vә ailә üzvlәrinin adına olan JN-1026 seriyalı torpağa mülkiyyәt hüququnun verilmәsinә dair dövlәt aktı itdiyindәn etibarsız hesab edilir.

Şәki rayonu, Zunud kәnd sakini Balaşov Tәrlan Mehdi oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN-026 f seriyalı torpağa mülkiyyәt hüququnun verilmәsinә dair şәhadәtnamә itdiyindәn etibarsız hesab edilir.

"Odlar Yurdu" universiteti tәrәfindәn Mәmmәdova Zümrüd Musail qızına verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Azәrbaycan Texniki Universiteti nәzdindә olan Bakı Dövlәt Rabitә vә Nәqliyyat Kolleci tәrәfindәn Mәmmәdli Elxan Rahib oğluna verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlәt Universiteti tәrәfindәn İsmayılova Şәfa Rövşәn qızına verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Sәhәr saatlarında әhvalınız sürәtlә dәyişә bilәr. Mәqsәd vә niyyәtinizdә ardıcıl, mәntiqli davranmasanız, çәtinliklәrin sayı artacaq. İşlәrinizdә sayıq olun. Kәnar tәsirlәrlә tәzyiqlәrә imkan vermәyin.



**Buğa** - Günün ilk yarısı әsәblәrin tarıma çәkilmәsini vәd edir. İntensiv fiziki vә ya intellektual fәaliyyәt istisna deyil. Saatlar keçdikcә gәrginlik daha da artacaq. İşdә rәhbәrliklә mübahisә etmәyin.



**Əkizlәr** - Günün ilk yarısından rutin işlәrin vә adi problemlәrin sayı artacaq. Karyera inkişafı ilә bağlı konkret addımlar atmaq üçün әlverişli zaman deyil. İşdә rәhbәrlik tәşәbbüslәrinizi dәstәklәmәyәcәk.



**Xәrçәng** - Çox şey vәd edәn uzunmüddәtli investisiyalar yatırmaq şansınız var. Tәkcә gәlirlәrinizi artırmaq vә faydalı sövdәlәşmәlәr әldә etmәk olar: peşәkarlıq intuisiyanız sizi yanıltmayacaq.



**Şir** - İşdә çәtinliklәr yarana bilәr. Texniki nasazlıqlar, hәmkarlarınızla anlaşılmazlıqlar istisna deyil. İradәnizlә mәnәviyyatınızın sınağa çәkilәcәyi situasiyalarda әtrafınızdakı insanların davranışlarına diqqәtlә baxın.



**Qız** - Adi günlәrdәn fәrqli olaraq qәfil hadisәlәr, ilk baxışdan anlaşılmaz mәsәlәlәrlә zәngin gündür. Ünvanınıza deyilәn ehtiyatsız kәlmәlәr, fәrqli düşüncә vә mövqe daşıyıcılarının dediklәri qıcıq yaratmasın.



**Tәrәzi** - Çәtinliklәr olmayan yerdә özünüzә problemlәr aramayın. Hәddәn artıq şübhәli insan tәsiri bağışlamayın. Sonradan sonuclarına tәәssüflәnәcәyiniz addımlar atmayın. Axşam saatlarını sevdiyiniz insana hәsr edin.



**Əqrәb** - Sәhәr saatlarında emosional narahatlıq apogeyә çata bilәr. Mümkün qәdәr fәal çalışmağa can atın. Daxili enerjinizi zahirdәki әmәllәrә döndәrin. Mәqsәdli olun, iradәli insan tәsiri bağışlayın.



**Oxatan** - Yaşamınızda dәyişikliklәr üçün әlverişli zaman deyil. Emosional "partlayış"dan qaçın. Mәnfi hisslәr, qıcıq yaradacaq mәqamlardan uzaq durun. Mәsuliyyәtli işi görәrkәn diqqәtli olun.



**Oğlaq** - Yaşadığınız durumu diqqәtlә müşahidә edin. Sayıq, çevik olun. Ən kiçik dәyişikliklәri nәzәrdәn qaçırmayın. Yaxın әtrafınızdakı insanlar arasındakı münaqişәlәrә dәstәk vermәyin.



**Dolça** - İlk әvvәl tәxirәsalınmaz mәsәlәlәrin hәlli ilә mәşğul olun. Bu işlәr xeyli vaxtınızı vә qüvvәnizi alacaq. Daha maraqlı işlәrә can atmayın. Rutinlikdәn qaçmaq mümkün deyil.



**Balıqlar** - Ruhdan düşmәyin. Böyük miqyaslı layihәyә başlamaq niyyәtiniz varsa, potensialınızı real vә ciddi şәkildә dәyәrlәndirin. Nә istәdiyinizi müәyyәnlәşdirin. Mәqsәdә çatmaq üçün bütün imkanlardan istifadә edin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Saturnun peykindә hәyat әlamәtlәri tapılıb

**NASA-nın alimlәri Saturnun "Enceladus" peyki üzәrindәki okeanda hәyat üçün lazım olan әsas әlamәtlәri tapıblar.**

"Ted.az" bildirir ki, "Buzlu ay" kimi tanınan vә hәyat әlamәtlәrinin olmadığı düşünülәn peykdә yeni tapıntı elm dünyasını hәyәcanlandırıb. "Buzlu ay"lar әsasәn buzdan ibarәt sәthlәri olan tәbii peyklәr kimi tәsnif edilir. "Buzlu ay"ların alt hissәsindә okean vә ya metal qayalar yerlәşә bilәr.

NASA-nın Cassini kosmik gәmisi 2017-ci ilin sentyabrında Saturn atmosferinә daxil olub. İndiyә qәdәr burada toplanmış mәlumatları qiymәtlәndirәn alimlәr "Enceladus"un üzәrindәki okeanın dәrinliklәrindә bәzi amin turşuları vә yeni növ üzvi birlәşmәlәr tapdıqlarını bildiriblәr. Azot vә oksigen ehtiva edәn birlәşmәlәr "Buzlu ay"ın okean qatında hәyat әlamәtlәrinin ola bilәcәyinә dair işarәdir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks:
*510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.